25 noyabr 2022 №87 (1960)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## "Prezident Əliyevdən bir çox məsələləri öyrəndik"



Mən Prezident Əliyevə dedim ki, bütün şəffaf protokol məsələlərinə görə bəzi sənədlər imzalanmalı olsa da, onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, nəyi deyirsə, mənim üçün kifayətdir, bilirəm ki, bu, belə də olacaq. Bu, bizim üçün, həqiqətən də, vacibdir.

Serbiya Prezidenti Aleksandar Vuçiç bu sözləri noyabrın 23-də Belqradda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən və ikitərəfli sənədlərin imzalanmasından sonra mətbuata bəyanatında deyib.

İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi uğurları rəğbətlə izlədiklərini deyən Aleksandar Vuçiç iki ölkə arasında bir çox oxşarlıqların olduğunu və bu xüsusda Prezident Əliyevdən bir çox məsələləri öyrəndiklərini vurğulayıb.

İmzalanan sənədlərin, o cümlədən strateji tərəfdaşlıq haqqında memorandumun əhəmiyyətini qeyd edən Serbiya rəhbəri iki ölkə arasında əməkdaşlığın yeni müstəviyə qalxdığını deyib: "Bu gün biz bütün vacib məsələləri müzakirə etdik. Bu məsələlər arasında enerji sahəsində əməkdaşlığın necə aparılması məsələsi də yer almışdır. Qazın istehsalı və ixracına gəldikdə, Azərbaycan qüdrətli ölkədir, yeddi, səkkiz və on ildən sonra Azərbaycan 35 milyard kubmetrdən daha çox qaz ixrac edəcək. Bu gün qaz ixracı təxminən 22 milyard kubmetr təşkil edir. Bu həcmin yarısından çoxu Avropa ölkələrinə nəql olunur. Məhz buna görə biz Serbiya və Bolqarıstan arasında interkonnektorun yaradılması üzərində çalışırıq ki, Bakıdakı dostlarımızın ixrac etdiyi əhəmiyyətli qaz həcmlərini təchiz edə bilək... Azərbaycan Serbiyanın etibarlı tərəfdaş olduğunu bilir. Prezident Əliyev və Azərbaycan təkcə bizə münasibətdə yox, hər kəsə münasibətdə etibarlı tərəfdaşdır".

davamı səh. 2-də

# Sivilizasiyalar Alyansının Qlobal Forumunda Azərbaycanın təşəbbüsləri təqdim edilib

### Ölkəmizin 2021-ci ildə irəli sürdüyü "Mədəniyyət naminə sülh" qlobal çağırışı müsbət qiymətləndirilib

Xəbər verdiyimiz kimi, 22-23 noyabr tarixlərində Mərakeş Krallığının Fəs şəhərində BMT-nin Sivilizasiyalar Alyansının (BMTSA) IX Qlobal Forumu keçirilib. Mədəniyyət naziri Anar Kərimovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti forumda iştirak edib.



Noyabrın 22-də forum çərçivəsində Sivilizasiyalar Alyansı "Dost nazirlər qrupu"nun yüksək səviyyəli görüşü keçirilib. Mərakeşin xarici işlər, Afrika əməkdaşlığı və mərakeşli emiqrantlar naziri Nasir Burita və BMTSA-nın ali nümayəndəsi Migel Angel Moratinosun sədrliyi ilə keçirilən iclasda giriş nitqləri ilə BMT-nin Baş katibi Antonio Quterreş, İspaniyanın xarici işlər naziri Jose Manuel Albaros və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu çıxış ediblər.

Sonra "Dostlar qrupu"na daxil olan ölkələrin nazirlərinin çıxışları dinlənilib.

Nazir Anar Kərimov IX Qlobal Forumunun aktual mövzuya həsr olunduğunu deyib, hazırda dünyanı cənginə alan böhranlar dövründə dialoq və sülhün önəmini vurğulayıb.

Azərbaycanın mədəniyyətlərarası dialoqu ən fəal təbliğ edən ölkələrdən biri olduğunu qeyd edən nazir 2016-cı ildə Sivilizasiyalar Alyansı VII Qlobal Forumunun Bakıda keçirildiyini xatırladıb. Anar Kərimov həmçinin 2008-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş "Bakı Prosesi" çərçivəsində iki ildən bir keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumunda Sivilizasiyalar Alyansının əsas tərəfdaşlardan biri olduğunu diqqətə çatdırıb.

Nazir eyni zamanda bildirib ki, Azərbaycan bu cür universal ideyaları dəstəkləsə də, öz mədəni irsinin qorunması üçün qlobal institutlardan lazımi diqqət görməyib. Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 30 ilə yaxın işğal altında saxlanıldığı dönəmdə həmin torpaqlardakı mədəni irsimizin dağıdılmasının qarşısının alınması məqsədilə beynəlxalq təşkilatlara edilən çoxsaylı müraciətlərə lazımi reaksiya verilməyib. Nəticədə Qarabağın çoxəsrlik mədəni irsi tamamilə dağıdılıb, şəhər və kəndlərimiz viran qoyulub. Bu gün işğaldan azad edilmiş şəhər və kəndlərimiz, xüsusilə Ağdam şəhəri "Qafqazın Xirosiması" adlandırılır.

Anar Kərimov çıxışının sonunda dünyada bir daha mədəni irsə qarşı bu cür vandalizm əməllərinin törədilməməsi üçün Azərbaycan Respublikası tərəfindən 2021-ci ildə irəli sürülmüş "Mədəniyyət naminə sülh" qlobal kampaniyası barədə danışıb. Qeyd edib ki, ölkəmiz "Bakı Prosesi"nin ənənəvi tərəfdaşları olan ICESCO və BMTSA kimi beynəlxalq təşkilatların sözügedən kampaniyaya dəstək verməsini alqışlayır.

Azərbaycanın irəli sürdüyü "Mədəniyyət naminə sülh" qlobal təşəbbüsü noyabrın 23-də forum çərçivəsində keçirilən "Sülh mədəniyyəti vasitəsilə çoxtərəfliliyin dirçəlişi: mədəniyyət naminə sülh kampaniyası" adlı 7-ci panelin əsas mövzusunu təşkil edib. Panelin moderatoru, "Var olma siyasəti: yeni inkişaf paradiqması üçün müdriklik və elm" kitabının müəllifi Tomas Legrand tədbiri açaraq Azərbaycanın elan etdiyi qlobal kampaniya haqqında ətraflı məlumat üçün sözü mədəniyyət naziri Anar Kərimova verib.

davamı səh. 3-də

## Baş katibə Nizaminin "Xəmsə"sindən seçilmiş əlyazmalar kitabı təqdim edilib



Mərakeş Krallığının Fəs şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının IX Qlobal Forumu çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi (NGBM) üzvlərinin BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşü olub.

Görüş zamanı Mərkəzin "Nizami Gəncəvi İli" çərçivəsində nəşr etdirdiyi "Qələmin sehri" – Nizami Gəncəvinin "Xəmsə"sindən seçilmiş əlyazmalar" kitabı və NGBM-in 10 illiyinə həsr olunmuş xatirə hədiyyəsi Antonio Quterreşə təqdim edilib.

səh. 3

## ICESCO və TÜRKSOY daha sıx əməkdaşlıq niyyətindədir

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi Sultan Raev arasında keçirilən görüşdə iki təşkilat arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.




Mərakeşin Fəs şəhərində BMT Sivilizasiyalar Alyansının IX Qlobal Forumu zamanı baş tutan görüşdə İslam-türk mədəni irsinin mühafizəsi və təbliği istiqamətində həyata keçiriləcək birgə layihələr ətrafında fikir mübadiləsi aparılıb. ICESCO-nun rəhbəri vurğulayıb ki, İslam irsi siyahısında türk xalqlarının çoxlu sayda qədim nümunələri var və rəhbərlik etdiyi təşkilat bu abidələrin mühafizəsi məqsədilə TÜRKSOY-la daha sıx əməkdaşlıq etmək niyyətindədir.

Sultan Raev bildirib ki, TÜRKSOY təşkilatı müxtəlif sahələrdə, xüsusən "İslam Dünyasının Mədəniyyət Paytaxtı" layihəsində ICESCO ilə əməkdaşlıq edir. Türk xalqlarının İslam və dünya mədəniyyətinə bəxş etdiyi dahi şəxsiyyətlərin yubiley tədbirləri də birlikdə təşkil oluna bilər.

## "Əhməd Cavad poeziyası vətənsevərlik çağırışıdır"

Respublika Gənclər Kitabxanası və Cəfər Cabbarlının Ev-Muzeyinin birgə təşkilatçılığı ilə noyabrın 23-də istiqlal şairi Əhməd Cavadın 130 illiyinə həsr olunan "Çırpınırdın, Qara dəniz" adlı tədbir keçirildi. Tədbirdə "Əhməd Cavad – 130" adlı elektron məlumat bazasının da təqdimatı oldu.



Tədbirdə elm, ədəbiyyat və mədəniyyət xadimləri, təhsil işçiləri, məktəbli və tələbələr iştirak edirdilər.

Kitabxananın direktoru Aslan Cəfərov çıxışında Əhməd Cavadın ömrünü istiqlal ideyalarına, türkçülüyə həsr etdiyini dedi. O, Əhməd Cavadın vətənə, torpağa, Azərbaycan-Türkiyə qardaşlığına, bayraqlarımıza şeirlər həsr etdiyini və onun bütövlükdə Türk dünyasının şairi olduğunu vurğuladı.

Cəfər Cabbarlının Ev-Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Qəmər Seyfəddinqızı Əhməd Cavadın Azərbaycanla yanaşı, qardaş Türkiyənin də istiqlalı uğrunda mübarizə apardığını bildirdi.

davamı səh. 2-də

## Fikrət Əmirovun 100 illiyi "Mezzo" telekanalında

Azərbaycan musiqi sənətinin korifeylərindən olan Fikrət Əmirovun 100 illiyini Fransanın musiqi üzrə ixtisaslaşmış "Mezzo" telekanalı da qeyd edir.

Televiziya kanalının internet səhifəsində bəstəkarın balet və simfonik konsertlərinin yayımlanacağı ilə bağlı proqram açıqlanıb. Proqrama əsasən, musiqisevərlərə dekabrın 1-dən 23-dək bəstəkarın "Kürd ovşarı", "Gülüstan – Bayatı-Şiraz" simfonik muğamları, "Azərbaycan kapriççiosu" və "Kor ərəbin mahnısı" təqdim ediləcək. Əsərlər maestro Rauf Abdullayevin dirijorluğu ilə Monte-Karlo Filarmonik Orkestrinin ifasında səslənəcək. "Kor ərəbin mahnısı" xanəndə Alim Qasımovun ifasında yayımlanacaq.

"Mezzo" televiziyasının "Twitter" səhifəsində Fikrət Əmirovun 100 illiyi ilə bağlı məlumat və Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında lentə alınmış "Min bir gecə" baletindən bir parça yerləşdirilib.




***

Onu da qeyd edək ki, Mədəniyyət Nazirliyi tərəfindən 12-23 noyabr tarixində keçirilən "Fikrət Əmirov – 100" musiqi festivalı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında bəstəkarın "Min bir gecə" baletinin nümayişi ilə başa çatıb.

Festival çərçivəsində Akademik Opera və Balet Teatrında bəstəkarın "Nizami" baleti, teatrın truppasının təqdimatında F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında "Sevil" operası nümayiş olunub.

Azərbaycan Dövlət Akademik Filarmoniyasında 15 noyabr (Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri) və 17 noyabrda (F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı), Gəncə Dövlət Filarmoniyasında noyabrın 18-də (Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri) konsert proqramları təqdim olunub. Noyabrın 21-də Beynəlxalq Muğam Mərkəzində Fikrət Əmirovun əsərlərindən ibarət vokal musiqisi axşamı, 22 noyabrda isə Heydər Əliyev Sarayında bəstəkarın təntənəli yubiley gecəsi keçirilib.

## Uzaq Braziliyadan yaxın ritmlər

Noyabrın 23-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Braziliya Federativ Respublikasının müstəqilliyinin 200 illiyinə həsr olunmuş I Braziliya Klassik Musiqi Festivalının açılışı oldu. Tədbirə qatılanlar uzaq ölkənin musiqi nümunələrini – Braziliya bəstəkarlarının əsərlərini dinləmək imkanı qazandılar.

Braziliyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Manuel Monteneqro tədbir iştirakçılarına, musiqi bayramının təşkilində dəstəyinə görə Azərbaycan Mədəniyyət Nazirliyinə təşəkkür etdi. Ölkələrimiz arasında əlaqələrdən söz açan diplomat mədəniyyət sahəsində də daha sıx əməkdaşlıqda maraqlı olduqlarını dedi.

davamı səh. 3-də

### Emin Sabitoğlunun xatirəsi anılıb



səh. 3

### "Atam hiss etsəydi ki, övladlarında musiqiyə həvəs yoxdur, heç vaxt musiqi təhsilimizdə təkid etməzdi"

səh. 5



### Yuxarı Gövhər ağa məscidi haqqında filmin təqdimatı

səh. 4

# "Prezident Əliyevdən bir çox məsələləri öyrəndik"

## Aleksandar Vuçiç: "İlham Əliyev bu gün Avropada ən populyar şəxsdir. Onların Azərbaycana ehtiyacları var"

əvvəli səh. 1-də

Əməkdaşlıqla bağlı müzakirələrin davam etdiriləcəyini bildirən A.Vuçiç gələn ay bu məqsədlə Bakıya gələcəyini deyib: "Məni bu gün əsası qoyulmuş strateji tərəfdaşlığı çox konkret razılaşmalar və əməli addımlarla dərinləşdirmək üçün Serbiya hökumətinin bir neçə naziri müşayiət edəcək".

Serbiya rəhbəri vurğulayıb ki, İlham Əliyev bu gün Avropada ən populyar şəxsdir, çünki onların Azərbaycana ehtiyacları var: "Avropada necə dəyişikliklərin baş verməsi inanılmazdır. Adətən onlar onun üçün vaxt tapa bilmirdilər, indi isə bütün vaxtlarını ona ayırırlar, çünki onların Azərbaycan qazına və Azərbaycanın təklif edə biləcəyi hər şeyə ehtiyacları olduğundan o, orada çox sevilir. Lakin mən bilirəm ki, o, ağıllı insandır, hər şeyi görür, hər şeyi başa düşür, düzünü desəm, mən bir az paxıllıq edirəm. Onlar mənə yalnız Kosovo ilə bağlı məsələ olanda, Kosovo ilə bağlı nəyə isə ehtiyacları olanda, məni təhdid etmək üçün zəng vururlar. Lakin Prezident İlham Əliyevi sevirlər və sevdiklərinə görə ona zəng vururlar. Onlar ondan hər şeyi xahiş edirlər. Mən, həqiqətən, şadam ki, mənim böyük dostum və Serbiyanın böyük dostu necə uğur qazanıb və dəyişməyib, o, hər zaman öz ölkəsinin təhlükəsizliyini təmin edib, ona hörmət edilməsinə nail olub, öz ölkəsinin qayğısına qalır və öz ölkəsinin maraqlarını müdafiə edir. Qoy başqaları düşünsün ki, onlar dəyişiblər, ya yox, yanaşma və prinsiplərini dəyişiblər, ya yox".

"Biz ölkəmizin həqiqi dostunun kim olduğunu hər zaman görmüşük", – deyən A.Vuçiç qeyd edib ki, qarşıda iki ölkəni bir çox işlər gözləyir: "Mən bu gün imzaladığımız bütün sənədlərə görə çox xoşbəxtəm və bilirəm ki, hələ çox işlər görüləcək. Biz Azərbaycan və Serbiya xalqlarının, vətəndaşlarının maraqları və rifahı naminə daha çox iş görə biləcəyik".

Azərbaycan haqqında dediyi xoş sözlərə görə həmkarına təşəkkür edən Prezident İlham Əliyev bildirib ki, bu, əsl dostun sözləridir: "Aramızda imzalanmış sənədlər ikitərəfli əlaqələrimizin hüquqi bazasını təşkil edir və onların arasında, əlbəttə ki, strateji tərəfdaşlıq haqqında sənədlər xüsusi yer tutur.



Biz, sözün əsl mənasında, strateji tərəfdaşıq. Çünki bir çox sahələrdə uğurla əməkdaşlıq edirik və bizim əməkdaşlığımızın strateji hədəfləri var".

### Beynəlxalq birlikdən 27 il ədalət gözlədik, axırda onu özümüz təmin etdik

İlham Əliyev vurğulayıb ki, Serbiya və Azərbaycan bir-birini hər zaman beynəlxalq arenalarda müdafiə edir, dəstəkləyir: "Prezident Vuçiçin dediyi kimi, ölkələrimizin suverenliyi, ərazi bütövlüyü qarşılıqlı surətdə dəstəklənir və bu mövqe birmənalıdır, dəyişməzdir və dəyişməz olaraq qalacaq. Eyni zamanda, Prezident Vuçiçin beynəlxalq təşkilatlarla bağlı dediyi sözlərə də şərh verərək bir neçə kəlmə demək istərdim. Bizim torpaqlarımız uzun illər işğal altında idi. Dünyanın aparıcı beynəlxalq təşkilatları bu işğalla bağlı önəmli və həqiqəti əks etdirən qərar və qətnamələr qəbul etmişdilər. Onların arasında, əlbəttə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qeyd etməliyəm. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz və tam şəkildə çıxarılması tələb edilirdi. BMT-nin Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, ATƏT, yəni, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişlər, ancaq məsələ öz həllini tapmırdı. Bu nəyi göstərir? Onu göstərir ki, beynəlxalq təşkilatların qərar və qətnamələri, onların icrası selektiv xarakter daşıyır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir, bəzi hallarda isə bir neçə saat ərzində icra edilir. Amma bizim məsələmizə gəldikdə, biz 27 il bu qərarların icrasını gözləyirdik və buna nail ola bilmədik...

Biz nəticə etibarilə görəndə ki, bütün bu səylər, o cümlədən aparılan danışıqlar səmərə vermir, güc amilindən istifadə etdik. Beynəlxalq hüquq bu imkanı bizə verirdi, BMT-nin Nizamnaməsi bu imkanı bizə verirdi, özünümüdafiə etmə haqqı bütün dövlətlərə şamil edilməlidir, o cümlədən Azərbaycana. Biz güc yolu ilə öz ərazi bütövlüyümüzü bərpa etdik, ədaləti bərpa etdik və artıq iki ildir ki, Azərbaycan xalqı azad edilmiş torpaqlarda qurub-yaradır, binaları bərpa edir, bütün o böyük ərazini – 10 min kvadrat kilometrdən böyük olan ərazini yenidən qurur".

Azərbaycanla Serbiya arasında əməkdaşlığın perspektivlərindən bəhs edən Prezident İlham Əliyev bildirib ki, energetika sahəsində əməkdaşlıq üçün yeni imkanlar var: "Azərbaycanın zəngin qaz resursları bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır və bizim rolumuz getdikcə artacaq. Əlbəttə ki, ilk növbədə, biz dost olan ölkələrlə bu sahədə və bütün başqa sahələrdə əməkdaşlığı dərinləşdirmək fikrindəyik. O cümlədən hərbi-texniki sahədə əməkdaşlıq aparılır və bu əməkdaşlığın daha da dərinləşməsi, daha geniş vüsət alması istiqamətində əlavə addımlar atılacaqdır.

Bir sözlə, biz bu gün növbəti illər üçün bir gündəlik tərtib etdik. Əlbəttə ki, prezidentlər bu gündəliyi diqqətdə saxlayacaqlar, bu məsələlərin icrasına nəzarət edəcəklər. Bunu daha operativ və səmərəli şəkildə etmək üçün, əlbəttə ki, biz tez-tez görüşməliyik...".

***

Qeyd edək ki, noyabrın 23-də Belqradda Azərbaycan və Serbiya prezidentlərinin təkbətək və geniş tərkibdə görüşlərindən sonra ikitərəfli sənədlərin imzalanması mərasimi olub.

Prezident İlham Əliyev və Prezident Aleksandar Vuçiç "Azərbaycan Respublikası Prezidenti ilə Serbiya Respublikası Prezidenti arasında Birgə Bəyanat"ı, "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının yaradılması haqqında Memorandum"u və onun əlavəsi olan "Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının Əsasnaməsi"ni imzalayıblar.

Bundan əlavə, "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş" (iki ölkənin daxili işlər nazirləri imzalayıb), iki ölkənin aidiyyəti nazirlikləri arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın sertifikatlarının tanınması haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında sosial təminat haqqında Saziş"in tətbiqinə dair sənəd, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Serbiya Respublikasının Serbiya İnkişaf Agentliyi arasında Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO ilə Serbiyanın Ticarət və Sənaye Palatası arasında Anlaşma Memorandumu" imzalanıb.

Noyabrın 23-də Belqradda Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyanın Baş naziri xanım Ana Brnabiç ilə geniş tərkibdə görüşü olub.

Dövlət başçısı birgünlük səfər zamanı Belqraddakı Taşmaydan parkında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin və serb şairi, yazıçı Milorad Paviçin abidələrini ziyarət edib. Abidələrin önünə əklil qoyulub.

Ulu öndər Heydər Əliyevin Taşmaydan parkında abidəsi 2011-ci ildə ucaldılıb. Bu, iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasının göstəricisidir.

Onu da əlavə edək ki, bu, son on gündə Azərbaycan Prezidentinin Balkan yarımadası ölkələrinə ikinci səfərdir. Dövlət başçısı noyabrın 15-də Albaniyada olmuşdu. Balkanlar Azərbaycanın Türkiyə üzərindən Avropa ilə enerji əməkdaşlığı üçün strateji regiondur. Bu baxımdan sıx əməkdaşlıq həm Azərbaycanın, həm də regiondakı tərəfdaş ölkələrin marağındadır.

---

# "Əhməd Cavad poeziyası vətənsevərlik çağırışıdır"

əvvəli səh. 1-də

Gənclər Kitabxanasının İnformasiya xidməti və media ilə iş şöbəsinin müdiri Günay Həsənova ədibin yubileyi ilə əlaqədar həyata keçirdikləri tədbirlər, o cümlədən "Əhməd Cavad – 130" elektron məlumat bazası haqqında məlumat verdi.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Əzizağa Nəcəfzadə repressiya qurbanları Əhməd Cavad, Hüseyn Cavid, Mikayıl Müşfiq kimi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin bir epoxanın inciləri olduğunu bildirdi.



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev Əhməd Cavadın "Çırpınırdın, Qara dəniz" şeirinin yazılma tarixindən danışdı, şairin yaradıcılığında vətənpərvərlik mövzusunun aparıcı yer tutduğunu vurğuladı. Dedi ki, Əhməd Cavad poeziyası xalqımıza şanlı Zəfər yaşadan Azərbaycan əsgəri üçün bir yürüş marşı, vətənpərvərlik çağırışıdır.

Bakı Dövlət Universitetinin (BDU) dosenti, filologiya üzrə fəlsəfə doktoru Məhbubə Qurbanova, Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi, dosent Günay Qarayeva Azərbaycan milli ideyasının poeziyada ən fəal tərənnümçüsü olan Əhməd Cavadın dünyagörüşündə islamçılıq və türkçülüyün bir vəhdət təşkil etdiyini söylədilər.

BDU-nun hazırlıq kursunun türkiyəli tələbələri "Çırpınırdın, Qara dəniz", "Can Azərbaycan", "Şəhidlər" şeirlərini, "Çanaqqala türküsü"nü, 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin dərnək üzvləri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri şairin "Səhər-səhər", "Azərbaycan bayrağına", "Qaldı", "Dönür" və digər şeirlərini səsləndirdilər.

**Lalə**

# "Bir amal uğrunda"



Azərbaycan İstiqlal Muzeyində 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək və vətənpərvərliyin təbliği məqsədilə davam edən "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə çərçivəsində daha bir sərgi təşkil edilib.

Noyabrın 24-də muzeydə "Bir amal uğrunda" adlı sərgi açılıb. Sərgidə şəhid polkovnik-leytenant Zaur Cəfərov, leytenant Murad Nağıyev, əsgərlər Əsəd Əsədli, Orxan Qəhrəmanov, Sayad Hacıyev və Cavid Cabbarzadəyə məxsus muzeyin fondlarında saxlanılan 60-a yaxın şəxsi əşya nümayiş olunur.

Tədbir iştirakçıları sərgi ilə tanış olublar.

---

# 37 il əvvəl çəkilən "Fikrət Əmirov" sənədli filmi bərpa edilib

Noyabrın 24-də Musiqi Mədəniyyəti Dövlət Muzeyində görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatı laureatı Fikrət Əmirovun 100 illiyi çərçivəsində bərpa olunmuş "Fikrət Əmirov" sənədli filminin təqdimatı keçirildi.





C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının 1985-ci ildə istehsal etdiyi ekran əsəri Azərbaycan Dövlət Film Fondu tərəfindən bərpa edilib.

Tədbiri Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq sənətkarın həyat və yaradıcılıq yolundan danışdı. Qeyd etdi ki, Fikrət Əmirovun yaradıcılığı keçmiş Sovet İttifaqının hər yerində, eləcə də Fransa, Meksika, Belçika, İngiltərə, Almaniya, Çexoslovakiya, Polşa, Rumıniya, Türkiyə, Mərakeş, İran, İsveç, İraq, Misir kimi ölkələrdə böyük dinləyici kütləsi tərəfindən maraqla qarşılanıb.

Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev çıxış edərək "Fikrət Əmirov" sənədli filmindən və ekran əsərinin bərpa olunmasından danışdı. Qeyd etdi ki, filmdə bəstəkarın ölümündən bir qədər əvvəl çəkilmiş kinoxronikadan, fotoşəkillərdən istifadə edilib. Sənədli kinolentə "Sevil" operasından, "Min bir gecə" baletindən ayrı-ayrı səhnələr, Xalq artisti Rəşid Behbudovun, Xalq şairi Nəbi Xəzrinin, rus-sovet bəstəkarı Tixon Xrennikovun xatirələri daxil edilib.

Tədbirdə daha sonra filmin rejissoru, Əməkdar incəsənət xadimi Cahangir Zeynallı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı və başqaları çıxış edərək bəstəkarın bənzərsiz yaradıcılığından danışdılar.

Çıxışlardan sonra muzeyin zəngin kolleksiyaları əsasında hazırlanmış slayd-şou nümayiş olundu.

Bəstəkarın oğlu, Xalq artisti Cəmil Əmirov çıxış edərək tədbirin təşkilatçı və iştirakçılarına ailələri adından təşəkkür etdi.

Sonda Fikrət Əmirovun əsərlərindən ibarət konsert proqramı təqdim edildi. Respublika və beynəlxalq müsabiqələr laureatları Cəmalə Abdinzadə, Hüseyn Nağıyev, Surə Rüfət, Toğrul Abdullayev, Nərgiz Cabbarova, Xədicə İsmixanovanın ifalarında F.Əmirovun "Min bir gecə" baletindən "İntroduksiya", "Min bir gecəni düşünərkən", "Laylay", "Sevgi rəqsi", "Kor ərəbin mahnısı", "Muğam-poema", "Göygöl" əsərləri səsləndirildi.

**Savalan Fərəcov**

---

# Ankaradakı Millət Kitabxanasına ölkəmizlə bağlı nəşrlər təqdim olunub

Azərbaycanın Türkiyədəki Səfirliyinin təşkilatçılığı, "PAŞA Həyat Sığorta" ASC və "İRS" jurnalının dəstəyi ilə Ankarada, Türkiyə Prezident Administrasiyasının Millət Kitabxanasında "Şuşa İli" münasibətilə kitab təqdimatı və konfrans keçirilib.

Əvvəlcə kitabxanada yeni tərtibat verilmiş və genişləndirilmiş Azərbaycan bölməsinin açılışı olub.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Aygün Attar, "PAŞA Həyat Sığorta" ASC-nin sədri Niyaz İsmayılov, Qazaxıstanın Türkiyədəki səfiri Yerkebulan Sapiyev, TÜRKSOY-un baş katibinin müavini Bilal Çakıcı, Azərbaycanın bu təşkilatdakı təmsilçisi Elçin Qafarlı və digərlərinin iştirak etdiyi mərasimdə ölkəmizlə bağlı kitablar bölməyə hədiyyə edilib.

Təqdim olunan kitablar arasında "İRS" Nəşriyyat Evinin layihəsi olaraq Mədəniyyət Nazirliyi və "PAŞA Həyat Sığorta" ASC-nin dəstəyi ilə işıq üzü görən "Qədim qalanın yuxuları", "Təbrizin sehrli nağılları", "Şuşa – zirvədən uca", "Salam, Azərbaycan!", "Qarabağın qara kitabı" və digər nəşrlər yer alıb.

Sonra tədbir iştirakçıları "Şuşa İli"nə həsr olunan fotosərgi ilə tanış olublar.

Şuşa haqqında filmin nümayişindən sonra "Salam, Azərbaycan!" və "Qarabağın qara kitabı" nəşrlərinin təqdimatı olub. "İRS" jurnalının baş redaktoru Musa Mərcanlı kitablar haqqında məlumat verib.

Daha sonra keçirilən konfransda Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, professor Aygün Attar, Yunus Əmrə İnstitutu Azərbaycan nümayəndəliyinin müdiri Selçuk Karakılıç çıxış ediblər.

Qeyd edək ki, "İRS" Nəşriyyat Evinin "PAŞA Həyat Sığorta" ASC və Mədəniyyət Nazirliyi ilə birgə 2013-cü ildən həyata keçirdiyi "İrs" silsilə layihəsi nəşr çərçivəsində indiyədək 10-dan çox kitab işıq üzü görüb.

# Dövlət Xidmətinin əməkdaşları ANAMA-nın təlimində iştirak ediblər

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin əməkdaşları Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) Göygöl regional təlim bazasında mina və partlamamış hərbi sursatların təhlükəsindən qorunma ilə bağlı təlim kursunda iştirak ediblər.

Təlim kursuna Dövlət Xidmətinin Salyan və Şabran regional idarələrinin əməkdaşları da qatılıb.

Təlim işğaldan azad olunmuş ərazilərdə yerləşən tarixi abidələrin monitorinqi, inventarlaşdırılması və mühafizə tədbirləri zamanı mina və partlamamış hərbi sursatlardan qorunma yollarının məqsədilə təlimatlandırma məqsədilə təşkil edilib.

ANAMA-nın əməkdaşları tərəfindən iştirakçılara mina və partlayıcı sursatlar, partlamamış sursatlar, minalanmış ərazi və təhlükəsizlik nişanları barədə təqdimatlar nümayiş olunub. Piyada əleyhinə və tank əleyhinə minalar, partlayıcı sursatların ümumi əlamətləri, təhlükəsizlik nişanlarının mənası və əhəmiyyəti, minalanmış ərazinin relyefinin xüsusiyyətləri haqqında ətraflı məlumat verilib.

Sonda təlim iştirakçılarına ANAMA-nın işğaldan azad edilmiş ərazilərdə mina və partlayıcı sursatların təhlükəsinə dair fərdi təlimat kitabçası təqdim olunub.

# Sivilizasiyalar Alyansının Qlobal Forumunda Azərbaycanın təşəbbüsləri təqdim edilib

## Ölkəmizin 2021-ci ildə irəli sürdüyü "Mədəniyyət naminə sülh" qlobal çağırışı müsbət qiymətləndirilib





*əvvəli səh. 1-də*

Nazir Anar Kərimov çıxışında BMT tərəfindən qəbul edilmiş "Sülh mədəniyyəti" konsepsiyası ilə "Mədəniyyət naminə sülh" çağırışı arasında prinsipial fərqləri açıqlayaraq yeni dövrün fərqli, daha effektiv yanaşmalara tələbatı ortaya çıxardığını bildirib. Anar Kərimov ötən ildən kampaniya çərçivəsində həyata keçirilən işlər, o cümlədən bu ilin may ayında Nyu-Yorkda BMTSA ilə imzalanmış Fəaliyyət Planı və onun əsas istiqamətləri haqqında iştirakçılara ətraflı məlumat verib.

Mövzu ətrafında çıxış edən Latviyanın keçmiş prezidenti Valdis Zatlers, ICESCO-nun baş direktoru Salim əl-Malik, BMTSA-nın ali nümayəndəsi Migel Angel Moratinos sülhün, inklüzivliyin, müxtəlifliyin və bu dəyərləri təşviq edən təşəbbüslərin qlobal əhəmiyyətini vurğulayıblar.

Qeyd edək ki, tədbirdə iştirak edən Ermənistan nümayəndəsinin ənənəyə uyğun olaraq təxribat yaratmaq cəhdləri növbəti dəfə iflasa uğrayıb. Belə ki, paneldə moderatorun mövzuya dair suallar üçün auditoriyaya müraciətindən istifadə edən Ermənistan Mədəniyyət Nazirliyinin təmsilçisi ölkəmizə qarşı cəfəng iddialarla dolu uzun nitq söyləyərək pozitiv mühiti pozmağa çalışıb.

Bu təxribat cəhdinə cavab olaraq nazir Anar Kərimov çıxış edərək sülhün ilk öncə insanların şüurundan başladığını diqqətə çatdırıb: "Sülh dəyərlərindən uzaq nitqdə səsləndirilən utopik iddialar dayanıqlı gələcəyə deyil, özünüməhvə aparan bir düşüncə yoludur. Təəssüf ki, müharibədən sonra Azərbaycanın təqdim etdiyi sülh prinsiplərinə bu günədək Ermənistan tərəfindən müsbət cavab verilməyib".

Panelin digər iştirakçıları da ermənilər tərəfindən pozitiv gündəmin dəyişdirilməsi cəhdlərini pisləyiblər.

Noyabrın 23-də günün sonunda keçirilən rəsmi bağlanış mərasimi ilə BMT-nin Sivilizasiyalar Alyansının IX Qlobal Forumu özü işini başa vurub.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri BMT-nin Baş katibi ilə görüşüblər

## Antonio Quterreşə Nizaminin "Xəmsə"sindən seçilmiş əlyazmalar kitabı təqdim edilib

22-23 noyabr tarixlərində Mərakeş Krallığının Fəs şəhərində Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının (UNAOC) IX Qlobal Forumu keçirilib.

Forum Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin (NGBM) tərəfdaşlığı ilə gerçəkləşib. Tədbir çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi üzvlərinin BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşü olub.

Görüşdə NGBM-in həmsədri, Latviyanın sabiq dövlət başçısı Vayra Vike-Freyberqa, BMT-nin 73-cü və 75-ci Baş Assambleyasının prezidentləri Maria Fernanda Espinosa və Volkan Bozkır, Bosniya və Herseqovinanın, Gürcüstanın, Bolqarıstanın, Latviyanın sabiq prezidentləri Mladen İvaniç, Qiorqi Marqvelaşvili, Petar Stoyanov, Valdis Zatlers, Çexiyanın sabiq baş naziri Yan Fişer, Ərəb Dövlətləri Liqasının sabiq baş katibi Əmr Musa, İsrailin sabiq xarici işlər naziri Tzipi Livni, ICESCO-nun sabiq baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri və başqaları iştirak ediblər. Görüşə BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Migel Angel Moratinos da qatılıb.



Görüş zamanı son hadisələrə, həmçinin dünyanın üzləşdiyi beynəlxalq çağırışlara dair fikir mübadiləsi aparılıb və bu formatda toplantının mütəmadi keçirilməsi razılaşdırılıb. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin bu ilin iyununda gerçəkləşən IX Qlobal Bakı Forumu, BMT Sivilizasiyalar Alyansı ilə əməkdaşlıq və həyata keçirilən təşəbbüslər haqqında BMT Baş katibinə məlumat verilib.

Mərkəzin Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən elan edilmiş "Nizami Gəncəvi İli" çərçivəsində nəşr etdirdiyi "Qələmin sehri" – Nizami Gəncəvinin "Xəmsə"sindən seçilmiş əlyazmalar" kitabı və NGBM-in 10 illiyinə həsr olunmuş xatirə hədiyyəsi Antonio Quterreşə təqdim edilib.

# Emin Sabitoğlu Musiqi Mədəniyyəti Dövlət Muzeyində yad edilib

Görkəmli bəstəkar, Xalq artisti, unudulmaz melodiyalar müəllifi Emin Sabitoğlunun (1937-2000) anadan olmasının 85 illiyi münasibətilə noyabrın 23-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində tədbir keçirilib.

Tədbiri giriş sözü ilə muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova açıb.

Musiqişünas, Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə bəstəkarın musiqi mədəniyyəti tariximizdə xidmətləri, yaradıcılıq yolu haqqında danışıb.

Çıxışlar muzeyin kolleksiyaları əsasında hazırlanmış slayd-şou ilə müşayiət olunub.

Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev, kinorejissor, Xalq artisti Oqtay Mirqasımov, operator, Əməkdar incəsənət xadimi Rafiq Qəmbərov bəstəkarın zəngin kino musiqisindən bəhs ediblər. Emin Sabitoğlunun musiqi müəllifi olduğu filmlərdən fraqmentlər nümayiş olunub.



Emin Sabitoğlunun qızı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) rektoru Ceyran Mahmudova bəstəkarın səs və fortepiano üçün "Romanslar" not məcmuəsinin yeni nəşrini təqdim edib. Məcmuədəki əsərlərdən bəziləri ADMİU-nun Estrada sənəti kafedrasının müdiri Məryəm Babayevanın rəhbərliyi ilə tələbələr Türkay Məlikova, Yavər Yılmaz, Bəxtiyar Quliyev, Xasay Şıxıyev və konsertmeysterlər Aysel Şahbazlı, Zəhra Parlanovanın ifalarında səslənib.

Tədbirdə Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədən irs şöbəsi Musiqi sektorunun müdiri Vüqar Hümbətov, mədəniyyət xadimləri, paytaxt muzeylərinin əməkdaşları iştirak ediblər.

Tədbir iştirakçıları Azərbaycan Dövlət Film Fondunun materialları əsasında hazırlanmış sərgi ilə də tanış olublar.

# Uzaq Braziliyadan yaxın ritmlər

*əvvəli səh. 1-də*



Festival haqqında məlumat verən səfir bu layihənin ənənə halını alacağına ümid etdiyini vurğuladı. Bildirdi ki, son bir neçə ildə Braziliya Xarici İşlər Nazirliyinin Gimaraes İnstitutu və Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə Braziliyanın Bakıdakı Səfirliyi və Azərbaycan Dövlət Akademik Filarmoniyası arasında yaranan uğurlu əməkdaşlıq davam etməkdədir.

Səfir festival çərçivəsində konsertlərin ilin sonunadək davam edəcəyini də əlavə etdi: "200 illik suverenlik tariximizin şərəfinə düzənlənən festivalın üç konserti XIX əsrdən başlayaraq mədəniyyətimizin ümumi tendensiyalarını dəyərli dinləyicilərin diqqətinə çatdıracaq. Azərbaycanda müstəqilliyimizin musiqi vasitəsilə qeyd olunması ikitərəfli münasibətlərin əhəmiyyətini vurğulayır. Bizim cəmiyyətlərimiz musiqimizin əks etdirdiyi və təbliğ etdiyi ümumi dəyərləri və istəkləri bölüşür".

Konsert proqramında Azərbaycan Dövlət Simli Kvartetinin (Əməkdar artistlər Ceyla Seyidova – violin, Soltan Məmmədova – violin, Vaxtanq İmanov – viola, Aleksey Miltıx – violonçel) ifasında braziliyalı bəstəkarlar Alexandr Levi və Alberto Nepomusenonun simli kvartet üçün yazılmış əsərləri səsləndi.

**Həmidə**

# Məktəblilər Üzeyir bəyin evində

Noyabrın 23-də Azərbaycan mədəniyyəti tarixinə misilsiz töhfələr vermiş dahi bəstəkar Üzeyir Hacıbəylinin (1885-1948) vəfatının 74-cü ildönümü tamam oldu.

Azərbaycan musiqi mədəniyyətinin inkişafı, böyük yüksəliş dövrü – yeni janr, ifaçılıq vasitələri ilə zənginləşməsi, musiqi kollektivlərinin yaranması onun adı, yaradıcılığı ilə sıx bağlıdır. Öz xalqının mədəniyyətini yüksəklərdə görmək arzusu onun sənətinə hər zaman güc verib.

Noyabr ayında həm də bəstəkarın Bakıda yaşadığı evin muzey kimi fəaliyyətə başlamasının 47-ci ili tamam olur. Azərbaycan xalqının yetirdiyi böyük şəxsiyyətin qoyub getdiyi mənəvi sərvət burada qorunub saxlanılır.

Muzey 20 noyabr 1975-ci ildə respublikanın rəhbəri – Azərbaycan Kommunist Partiyasının Birinci katibi Heydər Əliyevin yaxından köməyi və səyi nəticəsində indiki Şamil Əzizbəyov küçəsi (keçmiş Verxnyaya Priyutskaya, sonra Ketsxoveli) ev 67 ünvanında yaradılıb.

Üzeyir Hacıbəylinin Ev-Muzeyi böyüklü-kiçikli hər kəs tərəfindən maraqla ziyarət olunan məkandır. Muzey üçün xüsusi günlərdə isə bu ziyarətlərin sayı daha da artır.

Muzeyin əməkdaşları Üzeyir bəyin anım günündə Fəxri xiyabana gələrək onun məzarını ziyarət ediblər.

Muzeydə isə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin musiqi müəllimləsi Aynur Mustafayeva şagirdləri ilə açıq dərs keçib. Muzeylə yaxından tanış olan şagirdlərə Üzeyir bəyin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilib.

Şagirdlər Xalq şairi Səməd Vurğunun dahi şəxsiyyətin vəfatına həsr etdiyi "Ölüm sevinməsin qoy" şeirini söyləyib, musiqisi Ü.Hacıbəyliyə, sözləri Ə.Cavada məxsus olan Azərbaycan Respublikasının Dövlət Himnini ifa ediblər.




Sonda muzeyin direktoru, Xalq artisti, bəstəkar Sərdar Fərəcov ziyarətçilərlə xatirə şəkli çəkdirib.

# BMA-da israilli pianoçunun mühazirə-dərsi

İsrailin məşhur pianoçusu, beynəlxalq müsabiqələr laureatı, bəstəkar İlana Zalka-Rubinşteyn Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) ustad dərsləri və mühazirə keçmək üçün dəvət olunub.

Noyabrın 23-də qonaq BMA-da "Musiqi bizə sevgi haqqında danışacaq" mövzusunda mühazirə-dərs keçib.

BMA-nın beynəlxalq əlaqələr və sosial məsələlər üzrə prorektoru, professor Yeganə Axundova qonağı təqdim edib.

İlana Zalka-Rubinşteyn Bakıya gəlişindən çox məmnun olduğunu və azərbaycanlılara böyük rəğbət bəslədiyini bildirib.

O, mühazirə zamanı – Y.S.Bax, F.Mendelson, V.A.Motsart, F.Şopen, R.Şuman, R.Vaqner kimi bəstəkarların yaradıcılığına toxunaraq onların əsərlərindən nümunələr ifa edib.

Sonda qonaq özünün müəllifi olduğu "Noktürn" əsərini ifa edib.



# MEDİA-nın "E-köşk" rəqəmsal yayım platformasının təqdimatı




Medianın İnkişafı Agentliyinin (MEDİA) təşkilatçılığı, Media Təhlil Mərkəzinin tərəfdaşlığı ilə noyabrın 24-də "E-köşk" qəzet və jurnalların rəqəmsal yayım platformasının təqdimatı keçirilib.

MEDİA-nın icraçı direktoru Əhməd İsmayılov açılış nitqində bildirib ki, "E-köşk" platforması vasitəsilə oxucular ölkədə baş verən yeniliklərdən daim xəbərdar olmaqla yanaşı, sərbəst şəkildə qəzet və jurnalların rəqəmsallaşdırılmış arxivindən faydalana bilərlər. Platforma ənənəvi çap mediasını hər kəs üçün daha əlçatan edir: "Həm çap mediası subyektlərinin, həm də oxucuların istifadəsinə verilən platforma qəzet və jurnalların abunə və satışının elektron formada həyata keçirilməsinə vasitəçilik etməklə əldə olunan gəlirin media subyektlərinin bank hesablarına köçürülməsini təmin edir. Qiymətlər subyektlərin özləri tərəfindən sərbəst şəkildə müəyyənləşdirilir. Əlbəttə ki, ilkin dövrlərdə öz məhsullarını oxucularına ödənişsiz təqdim etməklə platformadan istifadənin təşviqi də çap mediası subyektlərinin öz seçimidir və platforma bu yanaşmanı da dəstəkləyəcək".

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi Kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov media sahəsində həyata keçirilən islahatların tərkib hissəsi olaraq çap mediası məhsullarının abunə və satışının təşkilinə dəstək göstərilməsi, media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində tədbirlərin vacibliyini vurğulayıb.

Sonra "Rəqəmsal dövrdə ənənəvi çap mediası: müasir oxu vərdişləri və transformasiya perspektivləri" mövzusunda panel sessiya keçirilib.

Sessiyada çıxış edən Mətbuat Şurasının sədri Rəşad Məcid platformanın çap mediası subyektlərinin iqtisadi dayanıqlılığının artırılması, ənənəvi çap mediasının rəqəmsal mühitə uyğunlaşması istiqamətində əhəmiyyətli addım olduğunu qeyd edib.

"Mass Solution" şirkətinin dəstəyi ilə hazırlanan "E-köşk" platformasının istifadə təlimatı, artıq platformada hesab yaratmış redaksiyalara dair videoçarxlar nümayiş etdirilib.

Tədbir zamanı yaxın gələcəkdə Medianın İnkişafı Agentliyi, Media Təhlil Mərkəzi, "EDUAZ co" MMC və Anadolu Agentliyinin (Türkiyə) birgə əməkdaşlığı ilə "EDU.AZ" platforması üzərindən jurnalistlər üçün onlayn təlimlərin təşkil ediləcəyi barədə də məlumat verilib. Layihə ilə bağlı "EDUAZ co"-nun layihə meneceri Lalə Həsənova təqdimat edib.

Sonra "Hürriyet" qəzetinin xəbər koordinatoru Fırat Karadeniz çap mediası məhsullarının təkmilləşdirilməsi və mediada peşəkarlığın artırılması üçün yeni tendensiyaların öyrənilməsi ilə bağlı çıxış edib.

№87 (1960)
25 noyabr 2022
www.medeniyyet.az

## Dövlət Xidmətinin rəisi bir sıra abidə və tarixi tikililərə baxış keçirib

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli Bakının Qaradağ rayonunda bir sıra abidə və tarixi tikililərə baxış keçirib.



Dövlət Xidmətinin rəisi öncə rayonun Ələt qəsəbəsində sənaye qülləsinin yerləşdiyi ərazidə olub.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və Ələt azad iqtisadi zonası üzrə layihələndirmə işlərini aparan şirkətin əməkdaşları ilə birgə keçirilən baxış zamanı ətrafında tikinti nəzərdə tutulan, abidə kimi reyestrə daxil olmayan sənaye qülləsinin mühafizəsi istiqamətində fikir mübadiləsi aparılıb.

Mühəndis tikililəri tipinə daxil olan belə qüllələr inşa texnikasına, dayanıqlı konstruksiyasına və maraqlı kompozisiyasına görə diqqəti cəlb edir. Bu kimi tikililər ölkəmizin sənaye tarixinin mühüm elementlərindəndir.

Daha sonra Qaradağ rayonunun Səngəçal qəsəbəsində yerləşən karvansara və ovdanlara baxış keçirilib.

Xidmət rəisi həmin abidələrin mühafizəsinin gücləndirilməsi istiqamətində tapşırıq və tövsiyələrini verib.

## Bölgələrdə "Şuşa İli" tədbirləri davam edir

Kürdəmir RMİ-nin Beyləqan rayon nümayəndəliyi tərəfindən "Şuşa İli" münasibətilə ağacəkmə aksiyası keçirilib. Aksiyada regional idarənin rəisi Faiq Xudanlı və Beyləqan rayon mədəniyyət müəssisələrinin əməkdaşları iştirak ediblər. Aksiya çərçivəsində Birinci Şahsevən kənd Diyarşünaslıq evinin ərazisində, həmçinin digər kənd klub müəssisələri və kitabxana filiallarının ətrafında ümumilikdə 270 ədəd kiparis, qaragac, xan çinar, göyrüş və s. növ ağaclar əkilib.

***



Ağcabədi RMİ Ağcabədi Dövlət Rəsm Qalereyası rayonun Heydər Əliyev adına meydanında "Qarabağ Azərbaycandır!" adlı rəsm əsərlərinin sərgisini təşkil edib. Sərgidə Qarabağımıza, onun tacı Şuşaya və digər mövzulara həsr olunan əsərlər yer alıb.

***

Sabirabad RMİ-nin əhatə etdiyi Saatlı rayon Mədəniyyət Mərkəzinin şəhər 1 saylı klubunda "Şuşanın görkəmli şəxsiyyətləri" mövzusunda tədbir keçirilib.

## Lənkəranda uşaq şairi ilə görüş



Lənkəran Regional Mədəniyyət İdarəsi (RMİ) və Azərbaycan Yazıçılar Birliyi (AYB) Lənkəran bölməsinin təşkilatçılığı ilə şəhər MKS-nin Uşaq şöbəsində gənc şair Əyyub Türkayla görüş keçirilib.

Şair bu il çapdan çıxmış "Balacaların şeir çələngi" kitabını uşaqlara təqdim edib, onlar üçün kitabdan şeirlər oxuyub. Uşaqlar da şeirlər söyləyib, rəqs nömrələri nümayiş etdiriblər.

Daha sonra Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov, AYB Lənkəran bölməsinin ədəbi məsləhətçisi Ağamir Cavad və digərləri çıxış edərək uşaq ədəbiyyatının inkişaf etdirilməsindən danışıb, uşaq yazarları ilə balaca oxucuların görüşlərinin keçirilməsinin vacibliyini diqqətə çatdırıblar.

## "Sumqayıt – arzuların şəhəri"



Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin S.Vurğun adına Mərkəzi Kitabxanasında Sumqayıta şəhər statusunun verilməsinin (22 noyabr 1949-cu il) 73 illiyi münasibətilə tədbir keçirilib.

"Sumqayıt – arzuların şəhəri" adlı tədbirdə kitabxananın əməkdaşları Sevda Məhəmmədova və Təranə Tapdıq çıxış edərək Sumqayıtın tarixi, inkişaf yolu və bu günü haqqında maraqlı faktları diqqətə çatdırıblar.

Sonra Sumqayıta həsr olunan şeirlər səsləndirilib. Sumqayıt şəhər MKS-nin direktoru vəzifəsini müvəqqəti icra edən Natəvan Axundzadə kitabxananın tarixindən söz açıb, şəhərin həyatında kitabxanaçı əməyinin də danılmaz olduğunu qeyd edib, tədbir iştirakçılarına təşəkkürünü bildirib.

## 2024-cü ildə Qarabağ xarici turistləri qəbul etməyə başlayacaq

İl yarımdan sonra Qarabağ öz qapılarını dünyanın hər yerindən gələn turistlərin üzünə açacaq.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bunu news.ru saytına müsahibəsində deyib.

Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərin böyük turizm potensialı var. Artıq bir neçə yerdə turizm infrastrukturunun yaradılması istiqamətində işlər aparılır: "Bundan əlavə, biz başqa ölkələrdən investorları cəlb etmək üçün investisiya şəraiti yaradırıq. Ancaq başa düşmək lazımdır ki, müharibə bir müddət əvvəl başa çatıb və o ərazilərdə hələ də minalardan təmizləmə prosesi gedir.

Biz vətəndaşların tam təhlükəsizliyini təmin etmək üçün bir sıra dövlət qurumları ilə işləyirik. Bu ilin sonuna kimi Tərtər rayonunun Suqovuşan qəsəbəsində turizm infrastrukturunu istifadəyə verməyi planlaşdırırıq. Orada su anbarı var və onun ətrafında turizm zonası yaradılır...".

## Yuxarı Gövhər ağa məscidi haqqında sənədli filmin təqdimatı

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin "Şuşa İli" çərçivəsində elan etdiyi xüsusi qrant müsabiqəsinin qaliblərindən olan "İşğal dövründə Şuşanın maddi-mədəni irsinə vurulmuş zərərin araşdırılması" layihəsi çərçivəsində "Yuxarı Gövhər ağa məscidi" adlı sənədli film hazırlanıb.

Noyabrın 23-də Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə Yasamal Rayon Heydər Əliyev Mərkəzində filmin təqdimatı keçirildi.

Filmin ssenari müəllifi, AMEA Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov Yuxarı Gövhər ağa məscidinin tarixi və erməni vandalizminə məruz qalması ilə bağlı faktlardan danışdı. Qeyd etdi ki, Şuşa şəhəri Ermənistan tərəfindən işğal altında saxlandığı dövr ərzində digər tarixi-mədəni abidələr kimi, Yuxarı Gövhər ağa məscidi də talan olunub. Minarələri daxildən tamamilə sökülüb, xaricdən atəşə tutulub, tavanı bir neçə yerdən uçurulub, daxili tərtibatı, dizayn və divar yazıları pozulub, kommunikasiya xətləri dağıdılaraq yararsız hala salınıb.



Film barədə danışan F.İsmayılov bildirdi ki, mütəxəssislər tərəfindən filmə ilkin baxış olub və yüksək qiymətləndirilib. Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə ekran əsərini Ermənistana qarşı məhkəmə iddiası işlərinin hazırlanmasında istifadə etmək məqsədilə müvafiq komissiyalara göndərəcəklərini deyib.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəis müavini Ağacavid Ramazanov filmin dünya ictimaiyyətini məlumatlandırmaq baxımından əhəmiyyətini qeyd etdi. Dedi ki, Dövlət Xidməti tərəfindən bu günə qədər işğaldan azad olunmuş ərazilərdə 400-dən artıq abidəyə baxış keçirilib: "Ümidvaram ki, gələcəkdə belə layihələr davamlı olacaq. Mədəniyyət Nazirliyi gələcəkdə də bu istiqamətdə reallaşdırılan layihələrə dəstək göstərməyə hazırdır".

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin əməkdaşı Həsən Səmədov Yuxarı Gövhər ağa məscidinin erməni vandalizmə rəğmən ayaqda qalan az sayda abidələrdən biri olduğunu deyib.

Sonra sənədli film nümayiş olundu.

"Vətəndaşların Sosial Rifahı naminə" İctimai Birliyinin sədri İradə Rzazadə və digərləri film haqqında fikirlərini bölüşdülər.

Filmin rejissoru Amil Amaldır.

Qeyd edək ki, Yuxarı Gövhər ağa məscidində Qarabağ xanı İbrahimxəlil xanın qızı Gövhər ağanın tapşırığı ilə memar Kərbəlayı Səfixan Qarabağı tərəfindən 1883-1884-cü illərdə inşa edilib. Şuşa erməni işğalından azad edildən sonra, 2021-ci ildən məscid binasında təmir-bərpa işləri həyata keçirilir.

**Nurəddin**

## Əsərləri ilə musiqimizi dünyaya tanıdan bəstəkar

Xəbər verdiyimiz kimi, noyabrın 22-də dünya şöhrətli bəstəkar, Dövlət mükafatı laureatı, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Fikrət Əmirovun (1922–1984) anadan olmasının 100-cü ildönümü tamam oldu. Bu münasibətlə bölgələrdəki mədəniyyət müəssisələrində bir sıra tədbirlər keçirilib.



Sumqayıt Regional Mədəniyyət İdarəsi (RMİ) F.Əmirov adına 5 nömrəli Uşaq musiqi məktəbinin kollektivi "Dahi bəstəkar" adlı tədbir keçirib. Tədbir Əməkdar mədəniyyət işçisi Vaqif Süleymanovun rəhbərlik etdiyi Sumqayıt RMİ-nin xalq çalğı alətləri orkestrinin ifası ilə başlayıb. Müəllim və şagirdlərin ifasında dahi bəstəkarın "Gözün aydın" musiqili komediyasından rəqs, H.Cavidin "Şeyx Sənan" pyesinin tamaşasına yazdığı "Kor ərəbin mahnısı", "Gülür əllər", "Mən səni araram", "Reyhan", "Qarabağ inciləri" və başqa əsərləri səsləndirilib.

İdarə rəisi Rəşad Əliyev çıxış edərək Fikrət Əmirovun milli musiqi mədəniyyətimizə yeni nəfəs əlavə etdiyini, onun yaradıcılığının hər zaman dövlətin diqqətində olduğunu bildirib.

***



Sabirabad RMİ Hacıqabul şəhər Uşaq musiqi məktəbində də dahi bəstəkarın yubileyi qeyd olunub. Təhsil ocağının müəllim və şagird kollektivinin ifasında konsert proqramı təqdim edilib.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin 24 saylı kitabxana filialı "XX əsr Azərbaycan musiqisinin aparıcı simalarından" adlı tədbir keçirib. Çıxışlarda qeyd olunub ki, bəstəkarın "Sevil" operası, "Nizami" simfoniyası, "Min bir gecə" və "Nəsimi dastanı" baletləri, "Şur", "Kürd ovşarı" simfonik muğamları, mahnı və romansları, dram tamaşalarına, kinomuza yazdığı musiqi Azərbaycan mədəni irsinin qiymətli incilərindəndir.

Gəncə şəhər Fikrət Əmirov adına 1 nömrəli Uşaq musiqi məktəbində keçirilən tədbirdə bəstəkarın müxtəlif janrda olan əsərləri məktəbin müəllim və şagirdləri tərəfindən ifa edilib.

Gəncə şəhər Uşaq incəsənət məktəbində təşkil olunan yubiley tədbirində təhsil ocağının müəllimi Şəhla Əliyeva musiqi xadiminin ömür yolu və yaradıcılığından bəhs edib. Fikrət Əmirovun əsərlərindən parçalar alqışlarla qarşılanıb.

***

Ağcabədi RMİ-nin əhatə etdiyi Laçın şəhər Əli Quliyev adına 1 nömrəli Uşaq musiqi məktəbində keçirilən yubiley tədbirində müəllimlərdən ibarət ansamblın və şagirdlərin ifasında bəstəkarın müxtəlif əsərləri səsləndirilib.

***

Masallı RMİ Masallı onbirillik İncəsənət məktəbində Fikrət Əmirovun 100 illiyinə həsr olunan tədbir təşkil edilib. Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncovun da iştirak etdiyi tədbirdə məktəbin Nəzəriyyə şöbəsinin müdiri Vəfa Dövlətova bəstəkarın həyat və yaradıcılığı haqqında məlumat verib.



Cəlilabad rayon Uşaq incəsənət məktəbində "Fikrət Əmirov – 100" mövzusunda tədbir keçirilib. Məktəbin müəllim və şagird kollektivinin iştirakı ilə bəstəkarın əsərləri ifa olunub.

***

Ağstafa RMİ Ağstafa şəhər Uşaq musiqi məktəbində görkəmli bəstəkarın yubileyi münasibətilə konsert proqramı təşkil olunub. Məktəbin direktoru Arif Əliyev Fikrət Əmirovun həyat və yaradıcılığından, onun Azərbaycan musiqisinə verdiyi misilsiz töhfələrdən söhbət açıb. Sonra müəllim və şagirdlərin ifasında konsert proqramı təqdim olunub. Bəstəkarın əsərləri iştirakçıların alqışları ilə qarşılanıb.

## Vətən qəhrəmanları unudulmur



Şəki RMİ Qax rayonu Qum kənd Sənətkarlıq evi və kitabxanasının işçiləri "Şəhidim, sabahım sənə borcludur!" layihəsi çərçivəsində Vətən müharibəsi şəhidi Kamran Şabanovun ailəsini və məzarını ziyarət ediblər.

***



Gəncə RMİ Goranboy rayon Mədəniyyət Mərkəzinin Balakürd kənd Mədəniyyət evində "Qələbəmiz tariximizin şanlı səhifəsidir" adlı tədbir keçirilib. Çıxış edənlər şəhidlərimizin keçdiyi şərəfli döyüş yolundan söhbət açaraq onlarla bağlı xatirələrini bölüşüblər.

***

Ağcabədi RMİ Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyinin kollektivi Ağdam rayonunun Birinci Yüzbaşılı kəndində şəhidlərin xatirəsinə inşa olunan abidə bulaq kompleksinin açılış mərasimində iştirak ediblər.

***

Sabirabad RMİ Şirvan şəhər Heydər Əliyev Mərkəzinin əməkdaşları şəhid baş leytenant Fuad Bağırovun ailəsi ilə görüşüb, qayğıları ilə maraqlanıblar.

***

Kürdəmir RMİ Beyləqan Tarix-Diyarşünaslıq Muzeyi və rayon Peşə məktəbinin birgə təşkilatçılığı ilə "Əsrlərin yaddaşına həkk olan Azərbaycan" adlı tədbir keçirilib. Şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirdə bildirilib ki, 2020-ci ildə torpaqlarımızın işğaldan azad olunması zamanı öz qanları ilə tarix yazan oğullarımız Vətənin müqəddəsliyini bir daha sübut etdilər.

**Hazırladı: N.Məmmədli**

## Şuşada tarixi yerlər və abidələrlə bağlı simpozium

Şuşa şəhərində Azərbaycan, Türkiyə, İtaliya, Şimali Makedoniya, Gürcüstan, İran, Rusiya və digər ölkələrdən 70-dən çox alim və tədqiqatçının iştirakı ilə 4-cü Beynəlxalq Tarixi Yerlər və Abidələr Simpoziumu keçirilib.

Tədbir QHT-lərə Dövlət Dəstəyi Agentliyinin "Şuşa İli"nə həsr edilmiş qrant müsabiqəsinin qaliblərindən olan "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin (İB) təşkilatçılığı ilə reallaşıb.

Simpoziumun açılışı və plenar iclası Bülbülün Şuşadakı ev-muzeyində olub.

Simpoziumun təşkilat komitəsinin sədri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli, muzeyin direktoru Fəxrəddin Hacıbəyli, Azərbaycan Texniki Universitetinin professoru Şikar Qasımov, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun icraçı direktoru, professor Eynulla Mədətli, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun şöbə müdiri, professor Kübra Əliyeva, İtaliyadan bərpaçı-memar, professor Luici Skrinzi, Şimali Makedoniyadan antropoloq, professor Rubin Zemon və başqaları çıxış ediblər.



Məruzəçilərin çıxışları videolentə alınaraq "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sosial media səhifələrində yayımlanıb. Simpoziumun materialları kitab halında da nəşr ediləcək.

Simpozium iştirakçıları Şuşa şəhərinin tarixmemarlıq abidələri – Molla Pənah Vaqifin məqbərəsi, Yuxarı və Aşağı Gövhər ağa məscidləri, "Güllələnmiş heykəllər", Xurşidbanu Natəvanın evinin qalıqları, qala divarları ilə tanış olub, Cıdır düzünü seyr ediblər.

## "Qala – 270" adlı videoxülasə hazırlanıb

Milli Arxiv İdarəsinin tabeliyində fəaliyyət göstərən Dövlət Səs Yazıları Arxivi tərəfindən Şuşa şəhərinin 270 illiyinə həsr olunmuş "Qala – 270" adlı videoxülasə hazırlanıb.

Videoxülasə 2022-ci ilin "Şuşa İli" və Şuşa şəhərinin 270 illiyinə həsr olunub.

Xülasədə Dövlət Səs Yazıları Arxivinin fondlarında mühafizə edilən və Şuşa şəhərinə aid olan sənədlər – ulu öndər Heydər Əliyevin Şuşa şəhəri haqqında çıxışları, Şuşa şəhərində doğulmuş, orada fəaliyyət göstərmiş görkəmli incəsənət xadimlərinin ifaları yer alıb. İşğaldan əvvəlki dövrlərdə keçirilmiş "Xarıbülbül" festivalları, eləcə də Şuşa işğaldan azad olunandan qalaşəhərimizdə yenidən bərpa olunan bu festival haqqında məlumat verilib.



# “Xalq musiqisini dərindən bilməsi Fikrət Əmirovun yaradıcılıq uğurunun əsas amili idi”

## Sevil Əmirova: “Atam hiss etsəydi ki, övladlarında musiqiyə həvəs yoxdur, heç vaxt musiqi təhsilimizdə təkid etməzdi”

Bu ilin mart ayında Prezident İlham Əliyev dünya şöhrətli bəstəkar, Azərbaycan və SSRİ-nin Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun (1922-1984) 100 illiyinin dövlət səviyyəsində qeyd edilməsi ilə bağlı sərəncam imzalayıb. Dahi sənətkarın yubileyi ölkəmizdə və xaricdə silsilə tədbirlərlə qeyd olunur.

Bəstəkarın qızı, musiqiçi Sevil Əmirova ilə müsahibəmizdə atasının həyat yoluna nəzər saldıq, ilk olaraq əlamətdar yubileylə bağlı təəssüratlarını öyrəndik.

– Prezident İlham Əliyevin sərəncamına əsasən, Fikrət Əmirovun yubileyi ölkəmizdə və xaricdə təntənəli şəkildə qeyd edilir. Buna görə ailəmiz adından Prezidentimizə dərin təşəkkürümü bildirirəm. Onun diqqət və qayğısı sayəsində ölkəmizin mədəniyyəti, incəsənəti beynəlxalq səviyyədə tanıdılır, təbliğ olunur.

Atamın 100 illik yubileyi ilə bağlı silsilə tədbirlər ilin əvvəlindən etibarən dünyanın məşhur TV kanallarında, mətbu orqanlarında işıqlandırılır. Möhtəşəm konsert salonlarında və teatr səhnələrində konsertlər, festivallar keçirilir, tamaşalar, fotosərgilər nümayiş olunur. Həmçinin bu günlərdə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən Fikrət Əmirovun 100 illiyi münasibətilə musiqi festivalı keçirilir.

*– Noyabrın 3-də UNESCO-da Fikrət Əmirovun yubiley təntənəsi oldu. Siz də iştirak etdiniz. Təəssüratınız necədir?*

– Bəli, UNESCO-nun mənzil-qərargahındakı təntənəli tədbirdə mən də iştirak etdim. Tədbir çox yüksək səviyyədə keçdi. Konsertdə müxtəlif ölkələrdən diplomatlar, beynəlxalq təşkilatların və ictimaiyyətin nümayəndələri, media mənsubları və Fransada yaşayan soydaşlarımız iştirak edirdilər. Yubiley gecəsi nümayəndəliyimizin təşkil etdiyi ziyafətlə yekunlaşdı. Bu möhtəşəm tədbirin təşkilinə görə Mədəniyyət Nazirliyinə, UNESCO yanında daimi nümayəndəliyimizə, Fərhad Bədəlbəyli, dirijor Fəxrəddin Kərimov başda olmaqla Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bütün üzvlərinə, solistlərə, ümumiyyətlə, bu tədbirin təşkilində əməyi olanların hər birinə dərin təşəkkürümü bildirirəm.

*– Atanız Azərbaycan bəstəkarlıq məktəbində novator sənətkar kimi xatırlanır. Simfonik muğam janrı onun adı ilə bağlıdır. Sizcə, onun sənət uğurlarının əsasında nə dayanırdı?*

– Fikrət Əmirov Avropa musiqi məktəbi ənənələrini mükəmməl mənimsəmişdi. Azərbaycan xalqının musiqi irsini dərindən bilməsi və ona olan hədsiz sevgisi atamın yaradıcılıq uğurunun əsas amili idi. Bütün bu amillər məhz yeni bir janrın – simfonik muğamın yaranmasına gətirib çıxarıb. Məhz buna görə “Azərbaycan kapriççiosu”, “Azərbaycan süitası”, “Azərbaycan elləri” və ən önəmlisi “Şur”, “Kürd ovşarı”, “Gülüstan – Bayatı-Şiraz” simfonik muğamları kimi dəyərli əsərləri meydana gəlib.

*– Simfonik əsərlərlə yanaşı, bəstəkarın mahnıları da unudulmaz və xalqa yaxındır. Onun milli musiqiyə bu qədər bağlılığını nə ilə izah edərdiniz?*

– Fikrət Əmirov tanınmış xanəndə və tarzən Məşədi Cəmil Əmirovun ailəsində Gəncə şəhərində anadan olub. Babam əslən Şuşadan olduğuna baxmayaraq, ömrünün ikinci yarısını Gəncə şəhərində aktiv musiqi və maarifçiliyə həsr edib. Onun evində tez-tez musiqi axşamları təşkil olunarmış. Həmin məclislərdə Azərbaycan musiqiçiləri ilə yanaşı, qonşu ölkələrdən də musiqiçilər iştirak edərmişlər. Məhz bütün bunların nəticəsi idi ki, 7 yaşlı Fikrətin ilk ifa etdiyi musiqi aləti tar idi. Və bu bağlılıq onu ömür boyu müşayiət edirdi.

*– Dünya şöhrətli bəstəkarın davamlı səfərləri, konsertlər, ictimai fəaliyyət – bütün bunlar, sözsüz ki, ailəyə ayrılan zamandan kəsilirdi. Atanızla ünsiyyətiniz, münasibətləriniz oxucularımız üçün də maraqlı olar...*

– Bəli, atam tez-tez xarici səfərlərdə olardı. Biz onun bu səfərlərdən qayıtmasını səbirsizliklə gözləyərdik. O, qayıtdıqdan sonra təəssüratlarını bizimlə bölüşərdi. Çox zaman ölkələrdən musiqi valları, suvenirlər gətirərdi. Müxtəlif ölkələrin musiqi ənənələrindən, insanlarından, mədəniyyətlərindən söhbətlər edərdi. Bunlarsa bizim üçün çox maraqlı idi.

*– Ən çox bəyəndiyi ölkə hansı olmuşdu?*

– Türkiyə, ərəb ölkələri, İran, Avropa ölkələri, ABŞ, Meksika və s. Hər zaman səfərlərdən çox böyük təəssüratlarla qayıdardı. Zənnimcə, Şərq ölkələri onun temperamentinə daha uyğun idi.

*– Xaricdə qalıb fəaliyyətini davam etdirmək təklifi almışdımı?*

– Həmin dövrü siz də bilirsiniz. Ona belə təkliflər az olmamışdı. Amma o, Vətənə bağlı insan idi. Atamda bu hiss, bu duyğu güclü idi. Bir məsələ də var ki, Fikrət Əmirov burada bütün qayğı ilə əhatə olunmuşdu. Şöhrəti və xalqın sevgisi var idi. O, başqa ölkədə yaşaya bilməzdi. Bir xatirəmi yada salım. Bir dəfə atamla anam İsveç səfərindən qayıdanda biz onları Moskvada hava limanında qarşıladıq. O vaxt təyyarə Moskvaya, daha sonra Bakıya uçurdu. Onun təyyarədən düşəndə necə sevindiyinin şahidi olmuşam. Hələ Moskvada belə tezliklə Bakıya çatmasını gözləyirdi. Bilirdi ki, iki saatdan sonra Azərbaycanda olacaq. Xalqımız öz musiqi xadimlərini hər zaman dəyərləndirib. Onlar da bu sevgini doğrultmuşdular.

*– Evdə işləyərkən xüsusi tələbləri vardımı?*

– Bəli, nizam-intizamı sevən insan idi. Eyni dərəcədə də səmimi və mehriban. Hər gün səhər saat 9 tamamda onun iş saatı başlayardı. Əvvəl partituralarla məşğul olardı, daha sonra fortepiano arxasına keçərdi. Arada fasilə edib yenidən işlə məşğul olurdu. Heç yorulmazdı. Çox əməksevər idi. Evdə bizə qarşı çox sakit və təmkinli idi. Səsini ucaltdığını, narazı olduğunu heç zaman görmədik. Təvazökar insan idi.

*– Tanınmış insanlardan daha çox kimlər evinizə qonaq gəlirdi?*

– Rəşid Behbudov, Cövdət Hacıyev, Şəmsi Bədəlbəyli, Teymur Elçin, Bəhram Mansurov, Niyazi və digər dostları. Atamın onlarla münasibəti çox yaxşı idi. Uşaqlıq xatirələrimdə onların bizə gəlişi ilə bağlı, evimizdə olduqları zamanlara dair unudulmaz xatirələr var. Çevrəsi çox geniş idi. Nəinki incəsənət aləmində, eyni zamanda digər sahələrdə fəaliyyət göstərən insanlarla da dostluq edərdi. Atamın qapısı hər zaman dostlara açıq olardı.

> “Atamın ölümündən 38 il keçib. Mənim üçün Fikrət Əmirov musiqidə yaşayır. Musiqilərində atamın ruhunu hiss edirəm. Hər bir əsərində atamla birgə yaşadığımız günləri xatırlayıram”

*– Bəzi tanınmış şəxsiyyətlər, atanızın dostları həm də onun “Simfonik portretlər”inin qəhrəmanlarıdır. Sizcə, həmin şəxsiyyətlərin xarakterləri əsərə necə sirayət edib?*

– 1970-ci illərdə yazılan bu əsərdə Azərbaycanın görkəmli mədəniyyət və incəsənət xadimləri olan Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Hüseyn Cavid və Niyazi kimi şəxsiyyətlərin obrazlarını öz musiqisi ilə təqdim etməyə çalışıb. “Azərbaycan ədəbiyyatı və incəsənətinin altı böyük ustadının obrazları yaradılıb. Onlardan hər biri mənim bəstəkar kimi təşəkkül tapmağımda böyük rol oynayıb. Mən məmnuniyyətlə onlara sevgi və ehtiram borcumu qaytarıram”. Bu fikirləri atam qeyd etdiyiniz əsər haqqında söyləyib.

*– Atanızı xatırlayarkən ilk olaraq düşündüyünüz nə olur?*

– Düşüncəli insan obrazı, fikri hər zaman musiqidə olan, bizə qarşı çox mehriban ata. Eyni zamanda işində emosional sənətkar.

*– Sizin və qardaşınızın peşə seçimində necə, bir rolu olubmu?*

– Əgər o hiss etsəydi ki, mən və qardaşımda musiqiyə həvəs yoxdur, bizim musiqi təhsilimiz üçün heç vaxt təkid etməzdi. Lakin biz musiqi sahəsinə gəldikdən sonra müəllimlərin seçimində və təhsilin keyfiyyətində tələbkar idi. Təbii ki, biz də təhsilə böyük məsuliyyətlə yanaşırdıq.

*– Adət-ənənələrə münasibəti necə idi? Mühafizəkar deyildi ki?*



– Onun xarakterində maraqlı bir çalar var idi. Nəinki bizim adət-ənənələrə, hətta başqa ölkələrin adətlərinə də hörmətlə yanaşırdı. O qədər təmkinli insan idi ki. Hər cümləsi, hər fikri tutarlı, sanki aforizm idi. Müraciətdə də, münasibətdə də diqqətli idi. Bu baxımdan adətlərə də böyük ehtiram göstərirdi. Amma bununla bərabər o çox müasir insan idi. Geyimində də, xasiyyətində də. Gələcəyi görən idi.

*– Musiqidən savayı bir hobbisi vardımı?*

– Ədəbiyyat, xüsusilə tarixi və avtobioqrafik əsərləri sevir, müxtəlif xalqların mədəniyyəti ilə maraqlanırdı.

*– Bilirik ki, atanız II Dünya müharibəsində iştirak edib. Heç müharibə ilə bağlı xatirələrindən ailəsinə danışardımı?*

– Müharibəyə getdiyi ilk vaxtlarda yaralanması, ağır şəraiti, xəstəliyi və s. onun həyatında dərin iz buraxmışdı və bu haqda danışmağı sevməzdi.

*– Adınız “Sevil” əsəri ilə əlaqəlidir. Atanız bu barədə sizə nəsə demişdi?*

– “Sevil” operasının premyerası 1953-cü ildə olmuşdu. Mən də həmin il anadan olmuşdum. Atam operanın qəhrəmanının adını mənə qoyub.

*– Ananız həkim olub: həkim və bəstəkar. Bu tandem ailədə özünü necə büruzə verirdi?*

– Anam Aidə Əmirova mükəmməl təhsilə malik, nəcib və arif insan idi. O, ailə qurduqdan sonra ömrünün sonuna qədər Fikrət Əmirovun yanında onun həyat və yaradıcılığının bütün mərhələlərində atama dayaq olub.

*– “Min bir gecə” baletini də ananıza həsr edib. Tarixçəsindən məlumatınız varmı?*

– Bəli, atam 1979-cu ildə yazdığı bu məşhur əsərini anama həsr etmişdi. Baletin partiturasının titul vərəqində “Həyat yoldaşım Aidaya” sözlərini yazmışdı. “Min bir gecə baleti” onun axırıncı tamamlanmış işi idi. Yəqin ki, bunda bir simvolizm var idi...

*– Atanızın dünyasını dəyişdiyi anı necə xatırlayırsınız?*

– Atamın ölümündən 38 il keçib. Həmin günü heç vaxt yada salmaq istəmirəm. Mənim üçün Fikrət Əmirov musiqidə yaşayır. Musiqilərində atamın ruhunu hiss edirəm. Hər bir əsərində atamla birgə yaşadığımız günlərin müxtəlif sevincli anlarını xatırlayıram. Özüm də musiqiçi olduğum üçün mənim bütün yaddaşım atamın yaradıcılığı və notları ilə sıx bağlıdır. Hər bir əsər səslənəndə mən qeyri-ixtiyarı həmin əsər yazılan zaman baş verən hadisələri, yaşanılan günün xatirəsini bütün vücudumla hiss edirəm.

*– Ötən il anım tədbirində qeyd etmişdiniz ki, hər hansı bir ciddi məsələdə həmişə atanızla məsləhətləşərdiniz. Övladlarına ən çox nəyi məsləhət bilərdi?*

– Əlbəttə. Biz hər zaman atamın məsləhətlərini dinləyərdik. Atam daxilən o qədər alicənab insan idi ki, oğlunu da, qızını da özünə dost kimi yüksək tuturdu. Biz düşünürdük ki, atamla hər mövzuda danışıb məsləhət ala bilərik. Bu, ailədə çox vacib şərtdir. Anam da bizimlə açıq idi. Məsləhətlərini də təkidlə verməzdilər. Atam məsləhətində hər zaman yol göstərərdi. Bu mövzuda avtoritar deyil, hər zaman dostcasına yanaşırdı məsələyə. Ümumiyyətlə, bu məsləhətlərin çoxu bizim təhsilimiz və musiqi aləmində yerimizlə bağlı idi. Məsələn, qardaşım Cəmil caz yolu ilə gedirdi. Atam bunu görürdü və heç vaxt demirdi ki, sən mənim yolumla get və klassik musiqi ilə məşğul ol və s.

*– Fikrət Əmirovun yaradıcılığının məhsuldar illərində musiqi sahəsində digər korifey sənətkarlar Qara Qarayev, Cövdət Hacıyev və digər imzalar var idi. Sənət mübahisələri, yaxud fikir mübadilələri olurdumu?*

– Onun dostları, həmkarları ilə çoxlu fotoları var. Mən bildiyim qədər, həmkarları ilə bir-birlərini çox gözəl anlayırdılar. Bilirdi ki, özü də məşhurdur və qarşısında olan həmkarı da məşhurdur. Hərəsinin öz yolu var idi. Alicənab sənət adamları heç vaxt bir-biri ilə mübahisə etməz. Bəlkə də ürəklərində nəsə olsa da, amma heç vaxt açıq şəkildə büruzə verməsdilər. Şahidi olduğum söhbətlərdə onlar yalnız sənətdən danışardılar. Əgər belə bir ciddi nüanslar olubsa da, həmin söhbətlər Bəstəkarlar İttifaqının iclaslarında, müzakirələrdə baş verərdi.



Evdə isə dostları ilə öz musiqiləri və əsərlərini müzakirə edərdilər. Atam kiməsə qibtə edirdi, ya kimsə ona, bunu demək bir az absurd olar. Çünki o, hələ gənc ikən bir sıra yüksək mükafatlara layiq görülmüşdü.

*– Dahi bəstəkarın yolunu siz, qardaşınız Cəmil Əmirovla yanaşı, qızınız Nəzrin Əfəndiyeva da davam etdirir. Bəlkə bir qədər Nəzrinin fəaliyyətindən danışaq...*

– Nəzrinin uşaq yaşlarından musiqiyə həvəsi vardı. O özü bu həvəsini babası ilə əlaqələndirir. Musiqi təhsilini Bakıda Bülbül adına Orta İxtisas Musiqi Məktəbində piano üzrə Aliyə Əliyevanın sinfində alıb. 1995-ci ildə Brüssel Kral Konservatoriyasına qəbul olaraq professor Yevgeni Mogilevskinin sinfində oxuyub. 2001-ci ildə konservatoriyanı ilk azərbaycanlı olaraq piano ixtisası üzrə fərqlənmə diplomu ilə bitirib. Beynəlxalq aləmdə babasının irsinin tanıdılmasında da layihələrlə çıxış edir. 2017-ci ildə Nəzrin tərəfindən yaradılan “Manestri” adlı trionun “Esprit nomades” adlı kompakt-diskində Fikrət Əmirovun əsərləri də yer alıb. O həm də 2019-cu ildə Brüsseldə qeydiyyatdan keçmiş Fikrət Əmirov Beynəlxalq Assosiasiyasının prezidentidir. Bu ilin sentyabr ayında Belçikada assosiasiya tərəfindən Fikrət Əmirovun 100 illik yubileyinə həsr olunmuş musiqili-ədəbi tədbir keçirilib. Tədbirdə “Manestri” triosu tərəfindən bəstəkarın əsərləri Nizami Gəncəvinin fransız dilinə tərcümə olunmuş bədii nümunələrindən parçaların müşayiəti ilə təqdim edilib və bu sintez belçikalılar tərəfindən rəğbətlə qarşılanıb. Müxtəlif əsrlərdə yaşamış iki dahi azərbaycanlının söz və musiqi irsinin bir gecədə səslənməsi mədəniyyətimizin zəngin tarixini və müasirliyini, eləcə də özünəməxsusluğunu göstərmiş oldu.

*– Bildiyim qədər, atanızın əsərlərinin not yazılarının bəziləri Musiqi Mədəniyyəti Dövlət Muzeyindədir. Ümumiyyətlə, əsas arxiv necə qorunur?*

– Atamın arxivi qardaşım Cəmil Əmirovdadır və qorunub saxlanmasını o həyata keçirir.

*– Maraqlı müsahibəyə görə təşəkkür edirəm.*

– Mən də diqqətə görə qəzetinizə minnətdaram.

**L.Azəri**

# Azərbaycan-Macarıstan diplomatik əlaqələrinin 30 illiyi konsertlə qeyd edilib



Bu il Azərbaycanla Macarıstan arasında diplomatik əlaqələrin qurulmasının (27 aprel 1992) 30 illiyidir.

Bu münasibətlə Macarıstanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə noyabrın 22-də Beynəlxalq Muğam Mərkəzində tədbir keçirilib.

Səfir Tamaş Torma çıxışında bildirib ki, ötən il səfirlik “MOI Group” Azərbaycan”, “Nargis” Fondu və “Nargis” jurnalı ilə birlikdə xeyriyyə konserti və yarmarka təşkil edib: “Tədbirdən toplanan vəsait Kübra Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu Uşaq Reabilitasiya Mərkəzinə xüsusi avadanlıqların alınmasına sərf olunub. Bu gün məhz bu kollektivin əməkdaşları bizim tədbirin qonaqlarıdır”.

Diplomat həmçinin Azərbaycanla Macarıstan arasındakı mədəni əməkdaşlıqdan söz açıb və Beynəlxalq Muğam Mərkəzində macar musiqiçilərinin dəfələrlə çıxış etdiyini vurğulayıb. Tədbirdə “MOI Group” Azərbaycan” şirkətinin icraçı direktoru Atilla Somfai çıxış edərək qurum tərəfindən ölkəmizdə reallaşdırılan müxtəlif layihələr barədə məlumat verib.

Çıxışlardan sonra “Nargis” Fondunun icraçı direktoru Nərmin İbrahimbəylinin də iştirakı ilə Elmi Tədqiqat Pediatriya İnstitutu Uşaq Reabilitasiya Mərkəzinin bir qrup əməkdaşına təşəkkürnamələr təqdim olunub.

Rəsmi hissədən sonra macar musiqiçilərinin ifasında konsert proqramı təqdim olunub. Norbert Kael (piano), Peter Olah (bas) və Andras Lakatosdan (nağara) ibarət trio maraqlı caz proqramı ilə çıxış edib.

**Lalə**

# “Qurama” kitabının təqdimatı olub

Bu ilin iyul-avqust aylarında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə olaraq Milli Qurama Festivalı keçirilib.

Festivalın yekunu olaraq “Qurama” adlı kitab ərsəyə gətirilib. Azərbaycan və ingilis dillərində hazırlanan kitabın müəllifi “İçərişəhər” Muzey Mərkəzinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əminə Məlikovadır.

Noyabrın 22-də Şirvanşahlar Sarayı Kompleksində kitabın təqdimatı və festivala həsr olunmuş sərginin açılışı olub.

Mərasimdə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin (DTMQ) İdarə Heyətinin sədri Şahin Seyidzadə, kitabın ərsəyə gəlməsinə dəstək verən BP şirkətinin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Milli Məclisin deputatı Soltan Məmmədov, məşhur fotojurnalist Reza Deqati çıxış ediblər. Çıxışlarda qurama sənətinin tarixindən, bu sənət növünün təbliği istiqamətində görülən tədbirlərdən, festivalın əhəmiyyətindən bəhs olunub.

Əminə Məlikova kitab haqqında məlumat verib. Qeyd olunub ki, kitab ölkəmizdəki müxtəlif muzeylərin fondlarında, eləcə də şəxsi kolleksiyalarda



saxlanılan qurama kompozisiyaları haqqında fotoşəkillər və məlumatlar əsasında hazırlanıb.

BP-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: “Azərbaycanın sənətkarlıq mədəniyyətində özünəməxsus yeri olan bu ecazkar milli sənət nümunəsinin təbliğinə dəstək olmaqdan məmnunuq. Qurama sənəti ölkənin bütün bölgələrində mövcuddur və bu sənət növü ilə əsrlər öncə məşğul olublar. Ümid edirik ki, bu gün təqdim olunan kitab və açılışını etdiyimiz sərgi Azərbaycanın mədəni irsinin bu qədim və rəngarəng bədii nümunəsinin daha geniş auditoriya tərəfindən öyrənilməsinə və araşdırılmasına kömək edəcək”.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

# İki dəfə yaralansa da, son nəfəsinəcən döyüşdü...

Ölkəmizin ərazi bütövlüyünün bərpa olunması və şanlı Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi şəhidləri haqqında məlumat verməyə davam edirik. Bu dəfə baş leytenant Ceyhun Əyyubov barədə söz açacağıq.



Ceyhun Savalan oğlu Əyyubov 1992-ci il avqustun 16-da Yevlax şəhərində anadan olub. Yevlax şəhər Q.Məmmədov adına 4 saylı tam orta məktəbdə təhsil alıb. Kiçik yaşlarından hərbçi peşəsinə həvəs göstərib. 2007-2010-cu illərdə C.Naxçıvanski adına Hərbi liseydə, 2010-2014-cü illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində motoatıcı ixtisası üzrə təhsil alıb. Leytenant rütbəsi ilə Daşkəsən və Tovuz rayonlarındakı N saylı hərbi hissələrdə xidmət edib. Uğurlu xidmətinə görə müxtəlif medal və fəxri fərmanlarla təltif olunub.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində həmlə bölüyünün komandiri kimi döyüşə yollanır. Müharibənin ilk günü Murovdağ istiqamətində döyüşlər zamanı şəhadətə yüksəlir. Ceyhunun nəşini bir müddət neytral ərazidən götürmək mümkün olmur. Oktyabrın 12-də Yevlax şəhər Şəhidlər xiyabanında torpağa tapşırılır. Ölkə başçısının müvafiq sərəncamları ilə Ceyhun Əyyubov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin anası Arzu Əyyubova Ceyhunun hələ məktəb illərindən hərbə maraq göstərdiyini qeyd edir: "9-cu sinifdə oxuyurdu. Bir gün evə sevincək gəldi. Dedi ki, Cəmşid Naxçıvanski adına Hərbi liseydən gəlib, adımı o məktəbə yazmaq istəyirlər, nə məsləhət görürsən? Mən də razılıq verdim... Ona Ceyhun adını dayısı qoymuşdu. Dayısı, demək olar ki, onunla nəfəs alırdı. Ürəyi bu itkiyə dözmədi. Ceyhun şəhid olandan 3 ay sonra qardaşım vəfat etdi. Ondan bir neçə gün sonra isə atamı itirdik. Ceyhunun şəhidlik zirvəsinə ucalmasından bir neçə ay sonra isə digər oğlumun övladı dünyaya gəldi. Şəhid qardaşının adını oğluna verdi".

Şəhidin atası Savalan Əyyubov bildirir ki, döyüş yoldaşlarının dediyinə görə, Ceyhun böyük həvəslə vuruşub. Ayağından yaralansa da, özü yarasını sarıyaraq döyüşü davam etdirir. Sonra bədəninin sol nahiyəsindən də yara alır. Lakin yenə də döyüşür. Hətta yaralı əsgərlərini döyüş meydanından çıxarır. Bu zaman mənfur düşmənin snayper gülləsinə tuş gələrək şəhid olur.

Bacısı Xanım Əyyubova qardaşı Ceyhunla fəxr etdiyini deyir: "Ceyhun mənə həm qardaş, həm də ata olub. Şəhid olmaq onun ən böyük arzusu idi. Mənə deyirdi ki, şəhidlik zirvəsinə yüksəlmək hər insanın işi deyil. Allah hər kəsə o zirvəni nəsib etmir. Mən fəxr edərəm ki, şəhid olaram. Yaxşı deyiblər, niyyətin hara, mənzilin ora. Qardaşım öz arzusuna çatdı, istədiyi o zirvəyə yüksəldi".

Ceyhunun qardaşı Mirkazım məhz onun hərb sahəsini seçməsinə görə hərbçi olduğunu deyir: "Hərbi liseydə oxuyan zaman onu hərbi formada gördüm. Bu zaman hərbə istəyim yarandı. Mən də Ali Hərbi Məktəbə qəbul oldum.

Tovuz döyüşləri zamanı Milli Qəhrəman, general-mayor Polad Həşimovun şəhid olması Ceyhunu çox sarsıtmışdı. O, mənimlə danışanda bir gün düşməndən Milli Qəhrəmanımızın qisasını alacağını demişdi. Vətən müharibəsindən xeyli müddət əvvəl Polad Həşimov Ceyhunun xidmət etdiyi Daşkəsən rayon N saylı hərbi hissəsində olub. O, Ceyhuna gələcəkdə müharibə olarsa, hansı istiqamətdən irəliləmək lazım olduğunu bildirib. Vətən müharibəsi başlayan zaman Ceyhun və komandiri olduğu bölük itki vermədən məhz Polad Həşimovun dediyi istiqamətdə irəliləyiblər".

Ceyhunun böyüdüyü evin qarşısında xatirə lövhəsi vurulub. Həmçinin təhsil aldığı orta məktəbin sinif otaqlarından birinə onun adı verilib. 28 yaşında şəhadətə yetən Ceyhundan geriyə qalan təkcə zabit poqonları, müxtəlif diplomlar və təltiflər deyil, həm də nəsillərə örnək olacaq şərəfli ömür və döyüş yoludur.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Qarabağı azad görmək arzusu ilə yaşayırdı...



*"Kəşfiyyat ordunun görən gözüdür. Məqsədimiz hərbi qulluqçulardan peşəkar kəşfiyyatçı yetişdirməkdir. Mən fəxr edirəm ki, kəşfiyyatçıyam".*

Bu fikirlər Vətən müharibəsinin şəhid mayoru, kəşfiyyatçı Elçin Mansurova məxsusdur. Bu gün qəhrəman döyüşçünün doğum günüdür.

Elçin Elşən oğlu Mansurov 25 noyabr 1984-cü ildə Yardımlının Kürəkçi kəndində dünyaya göz açıb. Kənd məktəbini başa vurub Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olur. 2003-cü ildə təhsilini bitirib bir müddət Silahlı Qüvvələrin təlim mərkəzində xidmət edir. Daha sonra Tovuz, Murovda, Füzuli bölgələrində düşmənlə təmas xəttində düz 13 il xidmət aparır. Qorxmaz kəşfiyyatçı ən çətin tapşırıqlardan üzüağ qayıdır. 2016-cı ilin Aprel döyüşlərində də qəhrəmanlıqla döyüşür. Rütbəyə, şöhrətə, ada can atmayan, sadə komandir olaraq zabit və əsgərlərin sevimlisinə çevrilir. Xidmət illəri ərzində 6 medala layiq görülür.

Ancaq Elçin Mansurov Qarabağı azad görmək istəyi ilə nəfəs alırdı. İkinci Qarabağ müharibəsi başlayanda 24 nəfərlik kəşfiyyatçı qrupu ilə yenə ön sırada, qaynar nöqtələrdə idi. Döyüş başlanan zaman bir neçə saat ərzində erməni faşistlərini məhv edərək üç mühüm postu ələ keçirirlər. Onların ikinci hücumu zamanı isə cəmi 45 dəqiqə ərzində iki erməni qrupu darmadağın olunur, strateji əhəmiyyətli daha iki post düşməndən təmizlənir.

İgid komandir tabeliyindəki qrupdan ayrılıb düşmən bölmələrinin yerləşdiyi dərinliklərə təkbaşına daxil olur. Onlarla düşmən əsgərini məhv edir. Geri qayıdan zaman düşmən snayperinə tuş gəlir. Elçin Mansurov elə müharibənin ilk günü – sentyabrın 27-də Füzuli ərazisində şəhadətə qovuşur. Ancaq cənazəsi oktyabrın 11-də döyüş meydanından götürülür, Bakıda II Fəxri xiyabanda böyük izdihamla torpağa tapşırılır.

Dövlət başçısının sərəncamları ilə Elçin Mansurov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına, "Vətən uğrunda", "İgidliyə görə", həmçinin Füzuli və Xocavəndin azad olunmasına görə medallarına layiq görülüb.

**Zəfər Orucoğlu**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# "Emin Sabitoğlu. Biblioqrafiya" kitabının və not məcmuəsinin təqdimatı

Noyabrın 22-də Milli Kitabxanada görkəmli Azərbaycan bəstəkarı, Xalq artisti, Dövlət mükafatı laureatı, təkrarolunmaz melodiyalar müəllifi Emin Sabitoğlunun (1937-2000) 85 illiyi münasibətilə "Emin Sabitoğlu. Biblioqrafiya" kitabının və "Emin Sabitoğlu. Sonatina" not məcmuəsinin təqdimatı olub.

Biblioqrafiyanın tərtibçisi Xeyransa Abbasova, elmi redaktoru Əməkdar mədəniyyət işçisi, professor Kərim Tahirov, ön sözün müəllifi Xalq artisti, bəstəkar Sərdar Fərəcov, redaktoru Elnur Nəciyevdir. Kitab Azərbaycan və rus dillərində tərtib olunub.

Milli Kitabxananın direktoru Kərim Tahirov tədbiri açaraq bildirib ki, Emin Sabitoğlunu yaşadan onun əsərləridir. Ürəkləri, qəlbləri oxşayan mahnıları hər zaman sevilə-sevilə müğənnilərimiz tərəfindən oxunub. Onun mahnıları ilə bir neçə nəsil sənətkarlar, musiqiçilər böyüyüb. İnsanlar var ki, dünyadan köçəndən sonra unudulurlar, ancaq Emin Sabitoğlu öz sənəti ilə yaşayacaq. Emin Sabitoğlu 600-dən çox mahnı bəstələyib, məhz o əsərlər bəstəkarı daim mənsub olduğu xalqın yaddaşında saxlayacaq.

Biblioqrafiya haqqında məlumat verən Kərim Tahirov onu da diqqətə çatdırıb ki, "Milli musiqi xəzinəmizdən" layihəsi çərçivəsində Emin Sabitoğlunun 1960-cı illərdə Moskvada yazdığı "Sonatina" əsəri not halında çap olunub.







Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Akif Marifli bildirib ki, hər bir kitab bizim üçün dəyərlidir. "Emin Sabitoğlu haqqında biblioqrafiya da bəstəkarın yaradıcılığını araşdıran tədqiqatçılar üçün zəngin bir mənbədir.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə Milli Kitabxananın təqdim etdiyi nəşrləri yüksək qiymətləndirib və bəstəkarın yaradıcılığından söz açıb: "Emin Sabitoğlunun bioqrafiyası hər kəsə məlum olsa da, ancaq mən bəzi məqamlardan danışmaq istərdim. Emin Sabitoğlu bir müddət Qara Qarayevin assistenti kimi çalışmışdır. Sonradan bizə dərs deyəndə biz onun başqa tərəfini – ziyalılığını, işinə sonsuz məsuliyyətini gördük. Biz Emin Sabitoğlunun mahnılarında novatorluq gördük. Onun mahnıları o zaman çox populyar idi. Mahnının ilk notlarından bilirdik ki, bu, Emin Sabitoğlunun əsəridir. O bizim hafizəmizdə gözəl bir musiqiçi kimi qaldı. Onun mahnılarına qulaq asarkən bugünkü mahnıların yaxşı və ya pis olduğunu aydın şəkildə hiss edirik".

"Sonatina" not məcmuəsinin redaktoru, Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov tələbəlik illərini xatırlayıb: "Biz Emin Sabitoğlunu Konservatoriyanın foyesində görəndə çox həyəcanlanardıq. O dövrdə Emin Sabitoğlu tanınmış bəstəkar idi. Emin mahnılarına istədiyi çalar qata bilirdi. İstər dram olsun, istərsə də yumor".

Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının elmi işlər üzrə prorektoru, professor Gülnaz Abdullazadə, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru Nazim Kazımov və başqa çıxış edənlər bəstəkarın yaradıcılığından danışıblar, uşaq musiqi məktəblərinin Emin Sabitoğlunun əsərlərinin notları ilə təmin olunmasının vacibliyini vurğulayıblar.

# Ustadlıq missiya olanda...

## Tanınmış jurnalist Şakir Yaqubov haqqında kitab çapdan çıxıb

Ustad. Bu kəlmənin ağır-sanbalını dərk edənlər onu hər yazıb-yaradana aid etməzlər. Ustadlıq şəxsin özünün illərlə çəkdiyi zəhmətin, ortaya qoyduğu nümunənin, bir də istedadının sayəsində yaranır. Hələ bu da ustadlıq ünvanı üçün yetərli deyil, gərək tanındığın mühit səni belə qəbul edə. Həm sağlığında, həm də yaşamından sonra ustad kimi xatırlanmaq çoxlarının arzusu, ancaq hər kəsə nəsib olmayan zirvədir...

Bu günlərdə Azərbaycan mətbuatının tanınmış nümayəndəsi, jurnalist, redaktor, Əməkdar mədəniyyət işçisi Şakir Yaqubov (1951-2022) haqqında kitab işıq üzü görüb: "Ustadlıq missiyası". Adı ilk andaca oxucuya ciddi bir mesaj ötürür: "ustadlıq" və "missiya"! Bir qələm adamının taleyində bu iki sözün, anlayışın birləşib onun adına, möhürünə çevrilməsi, doğrudan da, xoşbəxtlikdir. Şakir Yaqubov həmkarları, ziyalı dostları tərəfindən məhz belə xarakterizə olunur.

Nəşrin tərtibçiləri jurnalistlər Müsəllim Həsənov, Elşən Əliyev və Süleyman Qaradağlıdır. Kitabda ustad jurnalist haqqında tanınmış ziyalılar və həmkarlarının son illər, eləcə də onun vəfatından sonra mətbuat səhifələrində dərc olunan yazıları toplanıb.

Millət vəkili, akademik Rafael Hüseynov "Gözümün önündən getməyən foto" adlı yazını Ş.Yaqubovun vəfat xəbərini (15 oktyabr) eşidən kimi qələmə alıb. Akademik yazır: "Şakir Yaqubovu bir jurnalist olaraq səciyyələndirən başlıca cəhət gərək olan təsirli mövzunu tapmaq, ona yaza bilmək idi. Zatən, əsl qəzetçi elə bu deməkdir. Lakin ictimai-siyasi palitradan tutmuş portret oçerklərə və adi xəbərədək hər türlü yazını məharətlə və operativ şəkildə ortaya qoymağa daim hazır olsa da, idman jurnalistikasına, illah da, futbola meyli məxsusi idi. Futbolu indisi və bütün tarixi ilə həm yaxşı bilirdi, həm də bu mövzuda qeşəng yazırdı... Şakiri gərək çox danışdıraydılar, yazaydılar, çünki o, mətbuatımızın bir neçə qaynar onilinin son dərəcə maraqlı təfərrüatlarını yaddaşı və sinəsində daşıyan, həm də bu haqda iştahla, cəlbedicıliklə, doymadan danışa bilən həmsöhbət idi...".

Elşən Əliyev mahir publisistin sağlığında – 70 illiyi münasibətilə qələmə aldığı "Ustadlıq missiyası" adlı məqalədə Ş.Yaqubovu "jurnalistikamızın təmənnasız fədaisi" kimi səciyyələndirir. Bildirir ki, o, bütün həyatını – öncə sağlamlığını, doğmaları qarşısındakı borcunu bu peşəyə qurban verdiyi barədə etirafında nə qədər səmimidirsə, kişi kimi yaşadığı qəzetçilik və naşirlik həyatında heç kimin yanında gözükölgəli olmadığını və belə bir ömür yolunu yenə əvvəldən-axıracan gedə biləcəyini deyəndə də bir o qədər qətiyyətli və qürurludur.

"O, yazmağı yox, necə yazmamağı öyrədirdi" adlı yazısında Müsəllim Həsənov mərhum qələm sahibinin peşəkarlıq və prinsipiallığını xüsusi vurğulayır. Onun "Yaddaşımın küncündən..." kitabından bəhs edən müəllif yazır: "Şakir Yaqubovun bu kitabı da, digər publisistik kitabları kimi, yeni yazmağa başlayan, taleyini jurnalistikaya bağlamaqda qərarlı olan gənclər üçün əsl müntəxəbatdır, "necə yazmaq" və "necə yazmamaq" suallarına cavabdır...".




"Unudulmaz Şakir Yaqubovun əbədi səfərinə epiloq" qeydi ilə "Şuşa" nəşriyyatında çap olunan "Ustadlıq missiyası" kitabında həmçinin millət vəkili, professor Anar İsgəndərov, jurnalistlər Süleyman Qaradağlı, İmran Bədirxanlı, Hikmət Sabiroğlu və başqalarının yazıları yer alıb.

**F.Yunisli**

# Qədim türk yazılarının "dilini açan" alim

Türk xalqlarının tarixində 25 noyabr əlamətdar gün sayılır. Çünki bu gün türklərin qədim yazı mədəniyyətinin mövcudluğunun sübuta yetirildiyi bəyan olunub. Danimarkalı tanınmış alim Vilhelm Tomsen 1893-cü ildə ilk dəfə qədim türklərin Orxon və Yenisey daş kitabələrini oxuyub. O, bununla da türkologiya tarixində qədim türk əlifbasını oxuyan ilk alim kimi qalır. Bu il tədqiqatçının anadan olmasının 180 illiyidir.

Vilhelm Lüdviq Peter Tomsen 1842-ci ildə Danimarkanın paytaxtı Kopenhagendə dünyaya göz açıb. Məktəbli vaxtlarından xarici dillərə maraq göstərib. Orta məktəbi bitirdikdən sonra Kopenhagen Universitetinin Filologiya fakültəsinə daxil olur. Burada müqayisəli dilçiliyi, habelə ərəb, ispan, rus, fin və macar dillərini öyrənir. "German dillərinin finlapp dillərinə təsiri" adlı ilk elmi əsərini yazır. Kitab elmi ictimaiyyət tərəfindən maraqla qarşılanır. Alim bu əsərində qədimdə Şərqi germanlara klassik qot dilindən daha qədim bir ləhcənin mövcud olduğunu bildirir. Müəllifin tədqiqatı 1879-cu ildə ingilis və alman dillərinə tərcümə olunur. Elə bu əsərə görə də V.Tomsen Berlin Akademiyasının mükafatına layiq görülür, həmin il Danimarka Kral Akademiyasına üzv seçilir. Alim 1887-1913-cü illərdə Kopenhagen Universitetində professor kimi fəaliyyət göstərir.

V.Tomsenin elmi fəaliyyətində qədim türk yazılı abidələrinin öyrənilməsi mühüm yer tutur. O, ömrünün son 7 ilini ardıcıl olaraq bu sahəyə yönəldir. Onu da deyək ki, XIX əsrin 90-cı illərinin əvvəllərinədək qədim türk yazılı abidələrinin aşkar edilməsi və mətnlərin nəşri sahəsində xeyli iş görülsə də, bu yazıların sirrini açan olmamışdı. Tədqiqatçı 1892-ci ildə bu yazıların tədqiqinə başlayır. İki Orxon abidəsinin mətnləri üzərində iş aparır. İlk olaraq kitabələrdəki sətirlərin yuxarıdan aşağıya doğru olduğunu, sətir sıralarının isə sağdan sola düzüldüyü qənaətinə gəlir. Abidələrdəki əlifbanın isə 38 işarədən ibarət olduğunu və sözlərin bir-birindən iki nöqtə ilə ayrıldığını müəyyən edir. O, 1893-cü ildə apardığı araşdırmalara dair mətbuatda dərc etdirdiyi "İlk məlumat"ında yazır: "İlk öncə olaraq sətirlər üçün xüsusi işarələrin olub-olmadığını və hansıların da ola biləcəyini araşdırdım və uğura çox asan nail oldum".

Sonrakı mərhələdə alimin bütün səyləri hərflərin səs dəyərini müəyyən etməyə yönəlir. Onun aşkar etdiyi ilk hərf "i-i" saitləri bildirən işarə olur. V.Tomsen kitabələrin dilinin türkcə olduğunu müəyyən edir. 1893-cü il noyabrın 5-də mətnlərdən "tanrı" sözünü oxumağa nail olur. Sonra "Kültigin" adını müəyyən edir. Həmin il noyabrın 25-də uzun axtarışların nəticəsi olaraq bir saat ərzində bütün əlifbanı tam şəkildə oxuyur. Dekabrın 15-də Danimarka Kral Akademiyasının iclasında Orxon-Yenisey kitabələrinin açılışı haqqında məruzə ilə çıxış edir.



V.V.Radlov Sankt-Peterburqda, Rusiya Elmlər Akademiyasının iclasında V.Tomsenin kəşfinə istinadən Kültigin abidəsinin tərcüməsini təqdim edir. Bu işin mühümlüyü nəzərə alınaraq Elmlər Akademiyası tərcüməni çoxaldılıb ilk təcrübə kimi müxtəlif elmi cəmiyyətlərə göndərilməsinə icazə verir. İlk nüsxə V.Tomsenə göndərilir. 1894-1895-ci illərdə "Monqolustanın qədim türk yazıları" seriyasından daha üç əsər nəşr etdirilir.

Bakı Dövlət Universitetinin professoru Elbrus Əzizov araşdırmasında yazır ki, 1896-cı ildə Helsinkidə V.Tomsenin "Açılmış Orxon kitabələri" əsəri nəşr edilir. İki hissədən ibarət olan araşdırmanın birinci hissəsi "Əlifba" adlanır. Burada Orxon-Yenisey yazılarının əlifbası, saitləri və samitləri ifadə edən işarələr, onların işlənmə xüsusiyyətləri geniş təhlil olunub. Yazılardakı iki nöqtənin işlənmə qaydaları dəqiqliklə izah edilib. Bu hissədə qədim türk əlifbasının meydana gəlməsi məsələsi də araşdırılıb. Əsərin ikinci hissəsində müəllifin qədim türk tarixi ilə əlaqədar tədqiqatı, fin atlasındakı birinci və ikinci abidələrin mətnlərinin transkripsiyası, fransız dilinə tərcüməsi, mətn və tərcüməyə dair izahlar və nəhayət, adları, mövzuları, türk sözlərini və qrammatikanı əhatə edən indeks verilib. V.Tomsen Kültigin abidəsindəki çincə mətnin E.H.Parker tərəfindən ingiliscəyə tərcüməsini də öz əsərinə daxil edib.

Qədim yazıları oxumaqda böyük şöhrət qazanan alim Macarıstanın Nadsentmikloş kəndində tapılan peçeneq abidələrində də tədqiqat aparıb. Müxtəlif qablar üzərindəki yunan və qədim türk hərfləri ilə olan yazıları oxuyub.

V.Tomsenin 1924-cü ildə alman dilində nəşr olunmuş "Monqolustanın qədim türk yazıları" adlı əsəri böyük alimin qədim türk abidələrinin öyrənilməsi sahəsində çoxillik əməyinin yekunu hesab olunur. 1926-cı ildə Bakıda I Türkoloji Qurultay keçirilərkən türkologiyaya böyük töhfələr verən bu görkəmli alimin xidmətləri bir daha yada salınır. O, qurultayın rəyasət heyətinə fəxri üzv seçilir.

Türkologiya tarixində silinməz iz qoyan Vilhelm Tomsen 12 may 1927-ci ildə Kopenhagendə vəfat edib.

**Savalan Fərəcov**

# Qalaqlanmış kuklalar, tüstülü evin doğmalığı...



Bu, Qaxa payızda ilk səfərim idi. Sizli-bizli yaz-yayı oraları ayaqdan salıb, naz-nemətindən, ələlxüsus da havasından, suyundan xeyli faydalanırıq. Qucaq-qucaq səfa ilə, şəfa ilə dönürük Qaxdan.

Bu payızda yolçuluğum bir ayrı xoş ovqat yaratdı məndə. İstirahət həvəskarlarının təkəm-seyrək olduğu Qaxla baş-başa qala bildim. Zaman az olsa da, İlisudan bağlı bazara, teatrdan muzeyə gəzib-dolaşa bildim.

Qax səfərim haqqında öncəki yazımı oxuyanlar bilir ki, yurdumuzun bu guşəsində payızın sapsarı vaxtında, oranın göyünün gur-gur guruldayıb, yağışının şırhaşır yağan vaxtında getməyimin özəl səbəbi var idi: Qax Dövlət Kukla Teatrının 50 illik yubileyi.

Bu möhtəşəm mədəniyyət hadisəsi, sənət bayramında iştirakın zövqü iki gün çəkdi və 14-15 noyabr tarixləri mənim üçün yaddaqalan, maraqlı və dolğun oldu.

Qax və qaxlılar hər zaman qonaq-qaralı olsalar da, bəzi turizm bölgələrinə xas turistə kapital kimi baxmaqları da yoxdur. Onlar üçün əsas olan rayonları haqqında xoş təəssüratdır. Bunu hotel xidmətçisindən bazar alverçisinə, restoran inzibatçısından taksi sürücüsünə hər



kəsdən hiss etdim. Hə, bir də qəribə, bir az da adamı xoşhal edən rahatlıqları var. Sənə elə gəlir ki, onların heç vecinə də deyilsən. Amma, əslində, diqqətcil və çox mehribandırlar.

Qaxda olduğum iki gündə günəş də bütün səxavəti ilə gülümsəyir, əlin çatacaq qədər yaxın təəssüratı yaradan sıx meşəli dağların arxasından cəsarətlə şəfəqlərini ətrafa səpələyir, adama "Getmə, qal" deyirdi.

Qax Dövlət Kukla Teatrında yubiley ertəsi iki tamaşaya baxacaqdıq: "Biz mehriban ailəyik", "Xeyir və Şər". İlk nümayiş səhər saat 11:00-da idi.

Günəşi ilk görüşündə salamlayan qonaqlardan biri kimi məni də yuxu tutmadı və sakitliyin meydan oxuduğu parkda xeyli dolaşdım. Sonra Bakıdan birgə gəldiyimiz dostlar da mənə qoşuldu. Qərara gəldik ki, yaxınlıqdakı bağlı bazara gedək.

## Qax bazarında

Qax teatrının qayğıkeş əməkdaşı Şövkət bəyin müşayiəti ilə bazara daxil oluruq. O, mehribanlıqla qulağıma pıçıldayır: "Siz baxın, seçin, kənara durun. Qiymət soruşmağı mənə həvalə edin. Düzdü, qaxlılar adamaldadan döyüllər. Amma bazardı, ticarətdi də..." deyib göz vurur. Onun bu yumoruna mən də eyni əda ilə – əlimi gicgahıma yaxınlaşdırıb "Baş üstə, komandir" işarəsini verirəm.

Sakitlikdir. Hər tərəfdə təmizlik, səliqə-sahman göz oxşayır. Sanki bazara yox, kənd təsərrüfatı sərgisinə gəlmisən. Hərçənd Bakıda son getdiyim kənd təsərrüfatı malları satış-sərgisində bu sahmandan əsər yox idi.

Məsləhətə uyğun olaraq almaq istədiklərimi jest və mimika ilə işarə edirəm. Kəklikotu, çayotu, qollu-budaqlı zirinc, çaytikanı kolu, bir qismət də qoz-fındıq tədarük edəndən sonra gəldik əsas məsələyə – sumağa. Hə, mərəkə də bundan sonra başladı. Yox, özü də deyəsən, bu, təkcə bələdçimiz Şövkət müəllim üçün yox, ümumən bazar əhli üçün prinsipial məsələ idi. Çünki vitrinə yaxınlaşıb sumaqlara əl uzatdığım zaman satıcılar "Yox, bu qonaqlıq döyül. Özümüzü rüsvay eliyəsi döyülüh ha" deyib başqa bir vitrini nişan verirdilər. Bələdçimiz bizi bazarın lap qurtaracağına gətirdi. Şirindil sumaqsatan (ondan başqa heç nə satmır) ovcuma bir çimdik sumaq tökdü, "Sən almasan da, arxanca ağlayası döyül. Dadına bax" deyib gülümsündü. Sonra bələdçimizə baxıb "Teatr adamlarıyla gərək teatr çıxardan kimi danışasan" deyib qəşş elədi. Məhz bu replikasından sonra sumaq almaq fikri olmayanlar da hərəsi bir fincan məhsul aldı...

## Yubiley tamaşaları

Axşamkı yubiley ziyafətinin xoş əhvalı simalarına hopan teatrın əməkdaşları artıq iş başındadır. Ön sıralarında da direktor Seymur Vəliyev. Yenə diqqətlə bizi qarşılayıb, hal-əhval tutur. Sonra "Dünən baş xeyli qarışıq idi, sizləri teatrla yaxından tanış edə bilmədim. Buyurun, birlikdə gəzib təəssüratınızı zənginləşdirək" dedi.





Əvvəlcə sahmanlı həyəti dolaşırıq. Ürəkaçan işləri, gözədəyən nəticələri alqışladıqdan sonra xidməti otaqlara keçirik. Səliqəli inzibati otaqlar artıq isti və rahatdır. Bu "isti" sözünü ona görə xüsusi vurğuladım ki, teatrda istilik (kombi, kondisioner) sistemi yalnız bir neçə ay öncə qurulub. Yəni qaxlı kuklaçılar və kuklasevərlər artıq tamaşalarını soyuqla döyüşə-döyüşə hazırlayıb izləməyəcəklər.

Direktor və baş rejissorun bələdçiliyi ilə rekvizitlərin saxlanıldığı, kuklaların hazırlandığı və cəmləndiyi iri otağa da baxırıq. Kuklaların hazırlanma texnikaları, rəssam və konstruktorların iş üslubu ilə tanış oluruq. Fərqli texnikalarda hazırlanan kuklaların sayı az olsa da, kolleksiyaları zəngindir.

Bu məqamda bir arzumu da dilə gətirim: yaxşı olar ki, qaxlı kuklaçılar tamaşaların hazırlanması zamanı kuklaların sayından çox, onların texniki funksionallığına (hərəkətliliyinə) diqqət etsinlər...

Kuklaların, səhnə geyimlərinin hazırlıq prosesi ilə tanış olduqdan sonra proqrama uyğun olaraq tamaşaları izləyirik.

İlk olaraq bayram ovqatına köklənən "Biz mehriban ailəyik"ə baxırıq. Xub, nəinki səhnədə, məncə, elə hər yerdə mehriban olsaq yaxşıdır. Ələlxüsus da teatrda, kulisdə, səhnə arxasında. Çünki səhnə, sənət səmimiyyət, fədakarlıq və sənətin birləşdirdiyi insanların böyük sevgisi ilə yaşayır. Bu, öz yerində.

Yubiley tamaşası 10 aktyorun çiynində ərsəyə gəlib. Ümumən, bildiyim qədər, truppadakı aktyor sayı da məhz bu qədərdir. Osman Abdullayevin pyesinə teatrın baş rejissoru, Əməkdar artist Yusif Abdurahmanov quruluş verib. Rəssamı isə Mais Abdullayevdir. Musiqili tamaşada hadisələr meşədə baş verir.

Teatrın yubileyinə sürpriz hazırlamaq istəyən meşə sakinləri həyəcanla tədarükdədirlər. Amma onların bu sevincini gözündə qoymaq istəyən şər qüvvələr – yəni səhnə dili ilə desək, mənfi personajlar da var. Əslində, onların da arzusu məsumdur: səhnədə olmaq, həmin yubileyə qatılmaq.

Rejissor uşaqlı-böyüklü hər birimizə yaxşı tanış olan nağıl personajlarını, fərqli əsatirlərin qəhrəmanlarını, xülasə, rekvizitdəki əksər gözəgəlimli kuklaları da bu işə cəlb edib və özünəməxsus mesajları, sətiraltı eyhamları olan tamaşa hazırlayıb.

Üzümüzə təbəssüm qondurub əhvalımızı xoş etməyi bacaran səhnə işinin gözəl görünən texniki və bədii qüsurlarını, uşaq teatrı, kukla tamaşasının təməl prinsiplərini 3-4 elementdə ciddi şəkildə pozan detalları nəzərə almasaq, baxımlı tamaşa hasil olmuşdu.

Aktyorların əziyyəti, tamaşaçı ilə sürətli rabitə cəhdi də yaxşı idi. Diksiya və səslə işdəki müəyyən qüsurlar nəzərə çarpsa da, oyunlarına qatdıqları dinamika ilə bunu örtməyə çalışırdılar.

Düzü, təhlil baxımından mövzunu daha da genişləndirmək olardı. Amma bayram ovqatına və özümə verdiyim yarızarafat "Qonaqsan, yerini bil" tənbehimə əməl edib keçirəm ikinci tamaşaya. Hə, qoy bir-iki cümləni də yazım, sonra.

Hörmətli rejissorlar və rəssamlar, kukla tamaşalarında ana prinsip kuklanın funksionallığı və aktyorun kukla idarəetmə qabiliyyətidir. Bunu nəzərə alaraq bir aktyoru 5-6 kukla (rol) ilə yükləməkdənsə, az kukla ilə oyun texnikası baxımından daha optimal, səliqəli və baxımlı iş hasil etmək olar. Üstəlik, müasir uşaqlar kukladan müqəvvalıq yox, hərəkətlilik gözləyir...

Teatrın repertuarında çoxdan özünə yer tapan maraqlı tamaşalardan biridir dahi Nizami Gəncəvinin poeması əsasında hazırlanan "Xeyir və Şər". Birhissəli tamaşada canlı plan daha maraqlı, baxımlı alınmışdı. Odur ki, ayrılıqda qeyd etməyi özümə borc bilirəm: Xeyir (canlı) – İlmar Abdullayev, Şər (canlı) – Araz Mehrablı, Xeyir (kuklada) – Afət Yaqubova, Şər (kuklada) – Azər Kərimov, həmçinin Şahzadə – Aynurə Abbasova, Qulluqçu – Elnarə Razıyeva.

Canlı planda aktyor oyunu, ikilinin təsirli dialoqu, tamaşanın plastikasında özünəməxsusluq var idi. Tərtibatdakı əngəlləri, daha doğrusu, izafi detalları və ona adekvat olmayan işıq və səslə işi nəzərə almasaq, təsirli tamaşa idi.

Düşünürəm ki, nəinki Qax, ümumən bölgə teatrlarının aktyorları, eləcə də işıqçıları və səs rejissorları üçün uzunmüddətli ustad dərslərinə, təkmilləşmə, statistik vərdişlərin təkmilləşdirilməsinə böyük ehtiyac var.

## İsmayıl Dağıstanlının evində

Vaxt daralır. Bakıya qayıtmağımıza 1 saat qalıb. Odur ki, zamana meydan oxuyurmuş kimi, özü də sürhüllüdən (şimal-qərb zonasına məxsus xəmir yeməyi) imtina ilə növbəti məkana uşaq kimi qaça-qaça getdim. Uzaqdan bacasından tüstü qalxan bu munis ev məni də, məni tək qoymayan teatr, səhnə, sənət (qaxlı və gəncəli kukla rejissorları da bizimlə idilər) adamlarını da nəvazişlə "çağırırdı". Mənzilin önündəki gümüşü abidə, onun düşüncəli təsviri müşayiətində içəri keçmək üçün qısa pilləkənə yaxınlaşırıq.

Lövhə diqqətimi cəlb edir: "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi. Memorial Xatirə Muzeyi. Dövlət tərəfindən qorunur". Bura görkəmli səhnə, sənət xadimi, SSRİ Xalq artisti İsmayıl Dağıstanlının Xatirə Muzeyidir.

Muzeyin əməkdaşı, zal baxıcısı Sevinc xanım deyir ki, muzey 1990-cı ildən fəaliyyət göstərir. Bina iki otaq və bir foyedən ibarətdir. Burada 1255 eksponat qorunur. Əsas eksponatlar kitablar və fotoşəkillərdir.

İsmayıl Dağıstanlı 6 yanvar 1907-ci ildə Qax rayonunun Zərnə kəndində doğulub. Səhnə fəaliyyətinə 1925-ci ildə Nuxa (Şəki) mərkəzi fəhlə-kəndli klubu nəzdindəki dram cəmiyyətində başlayıb. Bakı Teatr Texnikumunda təhsil alıb, 1927-ci ildən eyni zamanda təcrübəçi aktyor kimi Dövlət Dram Teatrının səhnəsində kütləvi səhnələrdə çıxış edib. 1930-cu ildən fasilələrlə Dram Teatrında, İrəvan Dram Teatrında işləyib, Dərbənddə təşkil etdiyi Azərbaycan teatrının rejissoru və aktyoru olub. Azərbaycan səhnəsində V.İ.Leninin rollarının ilk ifaçısı kimi məşhurlaşıb. Görkəmli sənətkar 1 aprel 1980-ci ildə vəfat edib.

Bələdçidən muzeyə ən çox qaxlıların, yoxsa başqa yerlərdən qonaqların gəldiyini xəbər alıram. "Qaxlılar, yerli insanlar daha çox gəlir. Çünki onlar bu torpağın fəxri hesab edirlər İsmayıl müəllimi" deyir. Sonra nə düşünürsə, əlavə edir: "İndiki sakitliyə fikir verməyin. Soyuqdur deyə ziyarətçilər azalıb. Yaz-yay ayları buralar qaynar olur".

İkinci otağa keçirik. Burada daha çox foto və rəsmlər nümayiş olunur. Otaqda çox qalmaq olmur. Odun sobasının üzərindəki çaydanın zümzüməsi nə qədər xoş, sobada çırtıldayan odunla səsi nə qədər ekzotik olsa da, küləyin əks təsirindən içəri təpilən tüstüdə çox qalmaq olmur. Acı tüstünün "qovduğu" qonaqların arxasınca çıxıb ev sahibəsinə məxsus utancaqlıqla gülümsəməyə çalışan muzey əməkdaşı asta səslə "Muzeyimizin təmirə ehtiyacı var və ümid edirik ki, yaxın zamanda bu, baş verəcək" deyir. Biz də bu ümidə möhkəm inanaraq, Qaxla sağollaşırıq. Artıq yola düşmək vaxtıdır...

**Həmidə Nizamiqızı**
**Qax-Bakı**

---

## Xatirə təqvimi — 26-29 noyabr

### Azərbaycan

**26 noyabr 1927** – Dilçi-türkoloq, professor, Əməkdar elm xadimi Həsən İbrahim oğlu Mirzəyev (1927-2015) Qərbi Azərbaycanın (indiki Ermənistan) Dərələyəz mahalının Qovuşuq kəndində anadan olub.

**26 noyabr 1928** – Əməkdar artist Müxlis Sabir oğlu Cənizadə (1928 – 11.12.1972) Bakıda anadan olub. Musiqili Komediya, Akademik Dram teatrlarında çalışıb. "Dəli Kür", "Yenilməz batalyon" və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**26 noyabr 1937** – Şair, aşıq Mirzə Bilal Mustafa oğlu Mikayılov (1872-1937) repressiya edilərək güllələnib. Ağsu rayonunda Qəşəd kəndində anadan olub.

**26 noyabr 2014** – UNESCO Hökumətlərarası Komitəsinin Parisdə keçirilən sessiyasında Azərbaycanın kəlağayı sənəti Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahıya daxil edilib.

**27 noyabr 1870** – Məşhur şərqşünas, maarifçi Mirzə Kazım bəy (Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu; 22.6.1802 –1870) vəfat edib. Peterburq Universiteti Şərqşünaslıq fakültəsinin dekanı, Rusiya Elmlər Akademiyasının ilk azərbaycanlı üzvü olub.

**27 noyabr 1912** – Xalq artisti, aktyor və rejissor İsa Həsən oğlu Musayev (1912 – 8.2.1976) anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərib.

**27 noyabr 1919** – Əməkdar incəsənət xadimi, aktyor, ssenarist, rejissor Cahangir Aslanoğlu (Məmmədov; 1919 – 16.1.1998) anadan olub. "Gülmək cana faydadır", "Qarğa, məndə qoz var" və s. komediyaların, yumoristik hekayə və səhnəciklərin müəllifidir.

**27 noyabr 1945** – Əməkdar rəssam, heykəltəraş Namiq Əbdülxaliq oğlu Dadaşov (1945 – 7.10.2021) Bakıda anadan olub. Üzeyir Hacıbəyli və Bülbülün Şuşa şəhərindəki büstlərinin, Bakıda Fikrət Əmirovun heykəlinin müəllifidir.

**27 noyabr 2015** – Görkəmli dilçi alim, akademik Tofiq İsmayıl oğlu Hacıyev (1.5.1936 – 2015) vəfat edib. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru olub.

**28 noyabr 1852** – Şair, mütəfəkkir Mirzə Şəfi Vazeh (14.6.1794 – 1852) vəfat edib. Gəncədə doğulub, 1840-cı ildən Tiflisdə yaşayıb, müəllim işləyib, "Divani-hikmət" ədəbi məclisinə rəhbərlik edib.

**28 noyabr 1907** – Maarifçi, təbiətşünas alim, publisist Həsən bəy Zərdabi (Məlikov; 1842-1907) vəfat edib. 1875-ci il iyulun 22-də "Əkinçi" qəzeti ilə Azərbaycanda milli mətbuatın əsasını qoyub.

**28 noyabr 1933** – Əməkdar artist, vokal ifaçısı Adil İbrahim oğlu Məlikov (1933 – 19.5.2009) Astara rayonunda doğulub. Akademik Opera və Balet Teatrının solisti olub.

**28 noyabr 1939** – Bəstəkar, Xalq artisti, professor Sevda Mirzə qızı İbrahimova (1939 – 17.7.2022) anadan olub. Müxtəlif janrlarda əsərlərin ("Vətən şəhidləri" kantatası, "Əhvali-ruhiyyələr", "Azərbaycan təranələri" və s.) müəllifidir.

**28 noyabr 1940** – Tanınmış şair, aşıq Alqayıt Bayram oğlu Xəlilov (1940 – 12.1.2013) Qərbi Azərbaycanda (Ermənistan SSR) – Göyçə mahalının Daşkənd kəndində anadan olub.

**28 noyabr 1943** – Əməkdar rəssam Rafael Abbas oğlu Abbasov (1943 – 3.12.2020) Bakıda anadan olub. Portretlər, süjetli tablolar, natürmortlar, Abşeron və Naxçıvanın təbiətini tərənnüm edən mənzərələrin müəllifidir.

**28 noyabr 2009** – Xalq rəssamı Rafiq Mahmud oğlu Mehdiyev (10.6.1933 – 2009) vəfat edib. Kitab və dəzgah qrafikası sahəsində çalışıb, həmçinin rəngkarlıq əsərlərinin müəllifidir.

**28 noyabr 2018** – UNESCO Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında (Port Luis, Mavriki) Azərbaycanın təqdim etdiyi "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri" nominasiyası UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Həmçinin Azərbaycan, Türkiyə və Qazaxıstanın birgə təqdim etdiyi "Dədə Qorqud irsi. Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" nominasiya faylı təşkilatın Qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına salınıb.

**29 noyabr 1920** – Əməkdar rəssam Güllü Hacağa qızı Mustafayeva (1920-1993) Türkmənistanın Cərco şəhərində anadan olub. Əsərləri: "Leyli və Məcnun məktəbdə", "Şairə Məhsətinin portreti" və s. Yaradıcılığında uşaq portretləri xüsusi silsilə təşkil edir.

**29 noyabr 1928** – Azərbaycanın, SSRİ-nin və Rusiya Federasiyasının Xalq rəssamı Tahir Teymur oğlu Salahov (1928 – 21.5.2021) Bakıda doğulub. SSRİ Dövlət mükafatına, Azərbaycanın və Rusiyanın Dövlət mükafatlarına, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb. SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi (1973-1992) olub. Məşhur əsərləri: "Bəstəkar Qara Qarayevin portreti", "Təmirçilər", "Şəhər eşelonu" və s. Azərbaycanın ən ali təltifi olan "Heydər Əliyev" ordeninə (2008) layiq görülüb.

**29 noyabr 1947** – Tanınmış jurnalist Mirzə Xəzər (Mirzə Kərim oğlu Mikayılov; 1947-2020) Göyçay rayonunda doğulub. 1974-cü ildə İsrailə, oradan ABŞ-a köçüb. 1990-cı ilin 20 Yanvar faciəsi barədə "Azadlıq" radiosunda dünyaya ilk informasiya yayan jurnalistlərdən biri olub.

**29 noyabr 1994** – Əməkdar incəsənət xadimi, rəssam Kamal Əhməd oğlu Əhmədov (28.2.1940 – 1994) vəfat edib.

**29 noyabr 2009** – Əməkdar artist Firdovsi Qiyas oğlu Naibov (22.4.1935 – 2009) vəfat edib. Akademik Milli Dram, Gənc Tamaşaçılar teatrlarının aktyor olub.

**29 noyabr 2010** – Xalq artisti, diktor Fatma Ağacabbar qızı Cabbarova (7.11.1920 – 2010) vəfat edib. Azərbaycanın ilk radio diktorlarından olub.

### Dünya

**26 noyabr 1857** – Məşhur isveçrəli dilçi alim, semiologiya və struktur linqvistikasının banisi Ferdinand de Sossyur (Ferdinand de Saussure; 1857–1913) anadan olub.

**26 noyabr 1909** – Rumın dramaturqu, absurd teatrı estetik cərəyanının banisi Ejen İonesko (Eugene İonesco; 1909–1994) anadan olub. Pyesləri: "Daz müğənni", "Dərs", "Stullar", "Təmənnasız qatil", "Çamadanlı adam" və s.

**27 noyabr 1940** – Çin (Honkonq) aktyoru, rejissor, Şərq əlbəyaxa döyüş növlərinin ustası Brüs Li (Bruce Lee; 1940–1973) anadan olub.

**27 noyabr 1942** – Amerikalı rok-musiqiçisi, gitaraçı Cimi Hendriks (Jimi Hendrix – James Marshall Hendrix; 1942–1970) anadan olub.

**27 noyabr 1953** - Amerika dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1936) laureatı Yudjin O'Nil (Eugene Gladstone O'Neill; 16.10.1888 – 1953) vəfat edib.

**28 noyabr 1757** – İngilis şairi və rəssamı Vilyam Bleyk (William Blake; 1757–1827) anadan olub.

**28 noyabr 1820** – Alman filosofu, kommunist ideologiyasının banilərindən biri Fridrix Engels (Friedrich Engels; 1820–1895) anadan olub.

**28 noyabr 1829** – Bəstəkar və dirijor, Rusiyada ilk konservatoriyanın yaradıcısı Anton Qriqoryeviç Rubinşteyn (1829–1894) anadan olub.

**28 noyabr 1881** – Avstriya yazıçısı, ədəbiyyatşünas Stefan Sveyq (Stefan Zweig; 1881–1942) anadan olub. Əsərləri: "Naməlum qadının məktubu", "Maria Stüart", "Şahmat novellası", "Dünənki dünya" və s.

**29 noyabr 1906** – Məşhur kinooperator, sənədli filmlər rejissoru, SSRİ Xalq artisti Roman Lazareviç Karmen (1906–1978) Odessada anadan olub. "Xəzər neftçiləri haqqında povest" sənədli filminə görə Azərbaycanın Əməkdar incəsənət xadimi adına layiq görülüb.

**Hazırladı: V.Orxan**

# “Carnegie Hall”da “Dostluq körpüləri”

## Fikrət Əmirovun 100 illiyinə həsr olunmuş konsert

Noyabrın 22-də Nyu-Yorkdakı “Carnegie Hall”da azərbaycanlı, türk və yəhudi icmalarını klassik musiqi vasitəsilə həmrəyliyə və dostluğu möhkəmlətməyə səsləyən “Dostluq körpüləri” adlı konsert təşkil olunub.

Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin (National Music & Global Culture Society) təşəbbüsü ilə keçirilən konsert Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illiyinə həsr olunub.

Konsertdə tanınmış musiqiçilər – skripkaçı Aleksandr Markov və pianoçu Nərgiz Əliyarova, eləcə də dirijor Fuad İbrahimovun rəhbərliyi altında Nyu-York Beynəlxalq Virtuozlar Orkestri (“New York International Virtuosi Orchestra”) iştirak edib.

Tədbirdə türk bəstəkarı, “Qremmi” mükafatı nominantı Faruk Kancanın “Vox in Terra” əsərinin dünya premyerası, həmçinin Fikrət Əmirovun bəstəkar Elmira Nəzirova ilə həmmüəllif kimi yaratdığı “Fortepiano və orkestr üçün ərəb mövzularında konsert”in ABŞ-da premyerası



keçirilib. Tədbirdə yəhudi-alman bəstəkarı Feliks Mendelsonun, məşhur türk bəstəkarı Nevit Kodalli və yəhudi əsilli Amerika bəstəkarı Corc Gerşvinin skripka konsertləri də yer alıb.

Skripkaçıların Paqanini adına beynəlxalq müsabiqəsinin qızıl medalına layiq görülmüş Aleksandr Markov “Carnegie Hall”da 16 yaşında solo debüt edib. Markov Moskvada yaşayarkən atasından skripka dərsləri alıb və artıq 8 yaşında onunla birgə konsertlərdə müxtəlif orkestrlərin heyətində solist qismində çıxış edib.

Nərgiz Əliyarova Nyu-Yorkda yaşayan tanınmış azərbaycanlı pianoçu və klassik musiqi üzrə tədqiqatçıdır. Dünyanın 40-dan çox şəhərində solist kimi, həmçinin kamera və simfonik orkestrlərilə çıxış edib. O, Azərbaycanın Əməkdar artistidir, 2010-cu ildə “Şopen irsinə böyük töhfəsinə görə” Polşa hökuməti tərəfindən təltif olunub. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Nərgiz Əliyarova 20 ilə yaxın Bakı Musiqi Akademiyasında dərs deyib. Nyu-Yorkda Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətini yaradıb.

Dirijor Fuad İbrahimov Köln Konservatoriyasının məzunudur. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının üçüncü kursunda oxuyarkən o, Azərbaycan paytaxtında səfərdə olan Mstislav Rostropoviçin ustad dərslərində iştirak edib. Almaniyada, Köln Konservatoriyasında əvvəlcə alt sinfində oxuyub, sonra opera-simfonik dirijorluğu fakültəsinə daxil olub. Fuad İbrahimov London Kral Filarmonik Orkestri, Vyana Kamera Orkestri kimi Avropanın aparıcı kollektivləri ilə əməkdaşlıq edir.

# Daşkənddə “Türk ədəbiyyatının inciləri” 100 cildliyinin təqdimatı

Xəbər verdiyimiz kimi, Prezident Şavkat Mirziyoyevin göstərişi ilə özbək dilində “Türk ədəbiyyatının inciləri” seriyasından 100 cildlik toplu nəşr olunub. Noyabrın 22-də Özbəkistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda 100 cildliyin təqdimatı keçirilib.

Kolleksiyada Türk Dövlətləri Təşkilatında təmsil olunan Özbəkistan, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Macarıstanın XI-XXI əsrlərdə yaşayıb-yaratmış ümumilikdə 629 şair, yazıçı və mütəfəkkirin əsərləri yer alıb.

Təqdimatda Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Türkmənistanın Daşkənddəki səfirliklərinin nümayəndələri də iştirak ediblər.



Özbəkistanın İnformasiya və Kütləvi Kommunikasiya Agentliyinin direktoru Asadjon Xocayev layihə barədə ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, 100 cildlik toplunun hazırlanmasında 200-dən çox tərcüməçi, 50-yə yaxın yazıçı, redaktor və rəssam iştirak edib.

Özbəkistan Prezidentinin müşaviri Xayritdin Sultonov layihənin özbək ədəbiyyatsevərlər, tədqiqatçılar üçün mühüm hadisə olduğunu vurğulayaraq, soykökü, dili, dini, mədəniyyəti yaxın olan xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracağını bildirib.

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov çıxışında Özbəkistan dövlətinə və Prezident Şavkat Mirziyoyevə təşəkkürünü ifadə edərək, nəşr layihəsini Türk dünyası mədəniyyəti, ədəbiyyatı üçün böyük hadisə adlandırıb. AMM-in toplunun Azərbaycanla bağlı hissəsinə, tərcümə işlərinə dəstək göstərdiyini qeyd edən Samir Abbasov Azərbaycan ədəbiyyatının korifeyləri, klassik və müasir dövr ədiblərin – ümumilikdə 200 müəllifin əsərlərinin özbək dilinə tərcümə edilərək 16 cilddə təqdim olunmasını ədəbi əlaqələrimizə mühüm töhfə kimi dəyərləndirib.

Qırğızıstanın Özbəkistandakı Səfirliyinin mədəniyyət məsələləri üzrə attaşesi Aycamal Karamurzaeva, Türkiyə səfirliyinin mətbuat və mədəniyyət attaşesi Hamdi Turşçu və digər çıxış edənlər layihənin əhəmiyyətindən söz açıblar.

# BMT-nin Cenevrədəki “Beynəlxalq bazar”ında Azərbaycan da təmsil olunub



Azərbaycanın Cenevrədə BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi ənənəvi “Beynəlxalq bazar”da iştirak edib.

BMT-nin Cenevrə Bölməsində – Millətlər Sarayında təşkil olunan tədbirin məqsədi ölkələrin mədəniyyəti, incəsənəti, mətbəxi və adət-ənənələrinin təbliği və dünyanın müxtəlif bölgələrində yaşayan uşaqlara yardım üçün təsis olunmuş xeyriyyə fonduna ianə toplanmasıdır. Builki “Beynəlxalq bazar” “Uşaqlar naminə ittifaq” şüarı altında təşkil edilib.

Tədbirdə Azərbaycanın mədəni irsini, incəsənətini əks etdirən eksponatlar nümayiş olunub. Ölkəmizin turizm potensialı, mədəniyyəti ilə bağlı kitab, jurnal və digər materiallar iştirakçılara paylanılıb. Qonaqlara peşəkar aşpazların hazırladığı Azərbaycan mətbəxinin təamları təqdim edilib.

Builki tədbirdə Cenevrədə Mariya xan Xoyskayanın rəhbərliyi altında fəaliyyət göstərən azərbaycanlı uşaqlardan ibarət “İrs” rəqs qrupu tərəfindən Azərbaycanın xalq rəqsləri də nümayiş etdirilib.

Tədbirin sonunda ölkəmiz adından müəyyən məbləğ BMT-nin aidiyyəti xeyriyyə fonduna köçürülüb. Həmin maliyyə vəsaiti dünyanın müxtəlif yerlərində əlverişsiz şəraitdə yaşayan uşaqların xeyrinə layihələrin həyata keçirilməsi üçün sərf olunacaq.

# İordaniyada ölkəmizin sağlamlıq turizmi imkanları tanıdılıb

İordaniya Haşimilər Krallığının paytaxtı Amman şəhərində 19-21 noyabr tarixində İHTF-2022 – Beynəlxalq Sağlamlıq Turizmi Forumu keçirilib. 50-dən artıq ölkənin qatıldığı tədbirdə Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının (AHTTSA) prezidenti Ruslan Quliyev də iştirak edib.

Forum zamanı Qlobal Sağlamlıq Turizmi Təşkilatının (GHTC) təqdimatı çərçivəsində Azərbaycanın bu quruma rəhbərlik etdiyi dövrdə görülən işlər, bu sahədə Azərbaycanın mövcud təcrübəsi haqqında iştirakçılara geniş məlumat verilib. GHTC stendində Azərbaycanda sağlamlıq turizmi imkanlarını, o cümlədən Naftalan, Duzdağ, Qalaaltı və digər təsislər haqqında ətraflı məlumatların əks olunduğu reklam-çap məhsulları təqdim olunub.

Tədbirin ikinci günü Qlobal Sağlamlıq Turizmi Şurasının toplantısı keçirilib. Toplantıda 2023-cü ilin 26-27 aprelində Xorvatiyada Qlobal Sağlamlıq Turizmi Şurasının 5-ci sammitinin keçirilməsi qərara alınıb.

Toplantıda Azərbaycanın işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sağlamlıq turizmi potensialı barədə quruma üzv ölkələrin nümayəndələrinə məlumat verilib.

Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının sədri Ruslan Quliyevə Azərbaycanın Qlobal Sağlamlıq Turizmi Təşkilatına rəhbərlik etdiyi dövrdə qlobal sağlamlıq turizminin inkişafında göstərdiyi xidmətə görə xüsusi təşəkkür plaketi təqdim olunub.

# “Forsaj 10”un büdcəsi 340 milyon dollara çatıb

Premyerası 2023-cü ilin mayına nəzərdə tutulan “Forsaj 10” filminin astronomik büdcəsi olacaq. Filmin istehsal büdcəsi 340 milyon dollara çatıb. Bunu layihəni maliyyələşdirən və onun yayılmasına cavabdeh olan “Universal” studiyasındakı mənbələr açıqlayıb.

Qeyd edək ki, 2021-ci ildə təqdim olunan “Forsaj 9”un büdcəsi 200 milyon dollar olub. Məlumata görə, büdcədə bu qədər böyük artım bir sıra səbəblərlə, o cümlədən ekran əsərində çəkilən ulduzların qonorarlarının kəskin artması və ya qlobal inflyasiya nəticəsində istehsal xərclərinin ümumi artımı, həmçinin pandemiya dövründə tibbi təhlükəsizlik protokollarının tələbləri ilə bağlı ola bilər.

Xatırladaq ki, indiyədək ən bahalı filmlər siyahısında “Karib dənizinin quldurları 4: Qəribə sahillərdə” (379 milyon dollar), “Marvel Studios” istehsalı olan “Qisasçılar 2: Altron dövrü” (365 milyon dollar) və “Qisasçılar 4: Final” (356 milyon dollar) yer alır. “Forsaj 10” filmi isə bu reytinqdə hələlik dördüncüdür, lakin premyerayadək büdcənin artması da gözləniləndir.

# Spilberqə “Qızıl ayı” verəcəklər

Gələn ilin fevralında keçiriləcək növbəti, 73-cü Berlin Beynəlxalq Film Festivalında məşhur amerikalı rejissor Stiven Spilberqə fəxri “Qızıl ayı” mükafatı təqdim ediləcək. 76 yaşlı rejissor yaratdığı “Çənələr”, “Yadplanetlilər” və “Yura dövrünün parkı” kimi filmlərlə dünya kinosuna verdiyi töhfələrə görə təltif olunacaq.

Festival zamanı rejissorun yeni filmi – “Fabelmanlar” adlı yarımavtobioqrafik dramı da nümayiş etdiriləcək. Ekran əsəri kinematoqrafçının formalaşmasına və onun kinoya olan sevgisinə həsr olunub. Əsas rollarda Qabrielle LaBelle, Mişel Uilyams və Pol Dano çəkilib.

“Fabelmanlar”ın premyerası bu il Toronto Film Festivalında (Kanada) olub. Rejissor bu ekran əsərini karyerasının “ən şəxsi filmi” adlandırıb. Qeyd edək ki, Stiven Spilberq həmçinin 100-dən çox film və serialın ssenari müəllifi, eləcə də prodüseri olub. O, 19 dəfə “Oskar”a namizəd olub və 3 dəfə mükafata layiq görülüb.

73-cü Berlin Beynəlxalq Film Festivalı (Berlinale) 16-26 fevral 2023-cü ildə keçiriləcək.



Avropanın ən nüfuzlu üç kino forumundan biri olan “Berlinale”də ənənəvi olaraq əsas mükafat – “Qızıl ayı”, eləcə də müxtəlif nominasiyalar üzrə “Gümüş ayı”larla yanaşı, kinoda xüsusi xidmətlərə görə fəxri “Qızıl ayı” mükafatı da təqdim edilir.

72-ci Berlin Beynəlxalq Film Festivalında bu mükafata fransız aktrisa İzabel Upper (Isabelle Anne Madeleine Huppert) layiq görülmüşdü. Ondan öncəki iki festivalda isə fəxri “Qızıl ayı” Britaniyadan aktrisa, rejissor Helen Mirrenə və aktrisa, ssenarist Şarlotta Ramplingə verilmişdi.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar…

### 502 il əvvəl...




**28 noyabr 1520-ci ildə** dünya coğrafiya tarixinə yeni okeanın – Sakit okeanın adı düşüb. Portuqaliyalı dəniz səyyahı Fernan Magellan Avropadan Amerikaya səfəri zamanı Cənubi Amerika sahillərindən keçərək yeni okeana çıxıb və onu Sakit okean adlandırıb.

### 444 il əvvəl...

**28 noyabr 1578-ci ildə** Ağsu çayı sahilində, Mollahəsən kəndi yaxınlığında Səfəvi qoşunları ilə Osmanlı dövlətinin müttəfiqi, Krım xanı Adil Gərayın qoşunları arasında döyüş olub. Səfəvi qüvvələri qalib gəlib. Krım xanı yaralanaraq əsir düşüb, onun qoşun hissələri isə Osmanlının nəzarətindəki Dərbəndə geri çəkilib. Lakin sonrakı hərbi əməliyyatlar Osmanlının üstünlüyü ilə keçdi və müharibə Səfəvilərin Şimali Azərbaycanı itirməsi ilə (1590) nəticələndi.

### 110 il əvvəl...

**28 noyabr 1912-ci ildə** Albaniya Osmanlı imperiyasından (1479-cu ildən onun tərkibində idi) müstəqilliyini elan edib. Osmanlı Balkan müharibəsində (1911-1912) məğlub olandan sonra, digər Albaniya üzərində də nəzarəti itirmişdi. Albaniya tezliklə İtaliyanın nəzarətinə düşdü.

### 98 il əvvəl...

**26 noyabr 1924-cü ildə** Monqolustan Xalq Respublikasının yarandığı elan edilib. Monqolustan Xalq Xuralı (nümayəndələr məclisi) ölkənin ilk Konstitusiyasını qəbul edib.

### 86 il əvvəl...

**25 noyabr 1936-cı ildə** Moskvada VIII (fövqəladə) Ümumittifaq Sovetlər Qurultayı işə başlayıb. 10 gün sürən qurultay dekabrın 5-də SSRİ-nin yeni Konstitusiyasını qəbul etdi. Konstitusiyaya görə, ölkənin ali hakimiyyət orqanı kimi Ümumittifaq Sovetlər Qurultayını SSRİ Ali Soveti əvəz etdi. 1937-ci ildə Ali Sovetə ilk seçkilər keçirildi.

### 79 il əvvəl...

**28 noyabr 1943-cü ildə** SSRİ, ABŞ və Britaniya dövlət başçılarının Tehran konfransı işə başlayıb. Bu, Stalin, Ruzvelt və Çörçillin ilk görüşü idi. Dekabrın 1-dək davam edən konfransda Almaniyaya qarşı ikinci cəbhənin açılması razılaşdırıldı. Avropada ikinci cəbhə 1944-cü ilin yayında açıldı.

### 62 il əvvəl...

**28 noyabr 1960-cı ildə** Fransanın Şimali Afrikadakı müstəmləkəsi (1920-ci ildən) olan Mavritaniya müstəqilliyini elan edib, Mavritaniya İslam Respublikası yaranıb.

### 47 il əvvəl...

**25 noyabr 1975-ci ildə** Niderlandın Cənubi Amerikadakı müstəmləkəsi (XVII əsrdən) olan Surinam dövlət müstəqilliyini elan edib.

### 34 il əvvəl...




**27-29 noyabr 1988-ci ildə** Ermənistan SSR-nin Qafan, Quqark, Spitak və Stepanavan şəhərlərində azərbaycanlı əhalini deportasiya etmək üçün terror və qətllər törədilib. Üç gün ərzində erməni silahlı dəstələri tərəfindən 33 azərbaycanlı qətlə yetirilib. Bu hadisədən sonra Ermənistandakı azərbaycanlı əhalinin kütləvi köçü daha da sürətləndi.

### 33 il əvvəl...

**28 noyabr 1989-cu ildə** SSRİ Ali Soveti “Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyətin normallaşdırılması tədbirləri haqqında” qərar qəbul edib. Sənədə əsasən, Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsi (1989-cu il yanvarın 12-də yaradılmışdı) əvəzinə Respublika Təşkilat Komitəsi yaradılıb. DQMV üzrə Təşkilat Komitəsinin rəhbəri vəzifəsinə Azərbaycan KP MK-nın 2-ci katibi Viktor Polyaniçko təyin edilib. Bakının formal tabeçiliyində olsa da, bu qurum da Moskvanın nəzarətində fəaliyyət göstərirdi.

### 31 il əvvəl...

**26 noyabr 1991-ci ildə** Azərbaycan Respublikasının Ali Soveti Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv edilməsi barədə qərar qəbul edib. Qərar ermənilərin qondarma “Dağlıq Qarabağ Respublikası” yaratmaq qərarına (2 sentyabr 1991) cavab olaraq qəbul edilmişdi. Həmçinin keçmiş DQMV-nin inzibati mərkəzi – Stepanakert şəhərinin adının dəyişdirilərək Xankəndi adının bərpa olunması, Mardakert və Martuninin Ağdərə və Xocavənd adlandırılması barədə qanun qəbul edilib. Hadrut və Əsgəran rayonları ləğv edilib, Hadrutun inzibati ərazisi Xocavənd rayonunun tərkibinə, Əsgəranın ərazisi isə yeni yaradılan Xocalı rayonunun tərkibinə verilib.

Həmin gün Ali Sovetin iclasında parlamentin daimi fəaliyyət göstərəcək orqanının – 50 nəfərdən ibarət Milli Şuranın yaradılması barədə də qərar qəbul edilib. İqtidar və müxalifətyönlü deputatlardan paritet əsasda (25-25) formalaşan Milli Şura 1992-ci ilin mayında Milli Məclis adlandı və 1995-ci ilədək Ali Sovetin funksiyasını yerinə yetirdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5078. **Sifariş:** 3376
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641